# QARABAĞ AZƏRBAYCANDIR!

# ELM НАУКА

Qüvvət elmdədir...

Nizami Gəncəvi

Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin orqanı

№ 19 (1254) ❖ Cümə, 30 oktyabr 2020-ci il ❖ Qəzet 1984-cü ildən nəşr olunur




## *Prezident İlham Əliyev:* "Ermənistanın münaqişəni beynəlmiləlləşdirmək cəhdləri baş tutmayacaq"

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 28-də Rusiyanın İnterfaks agentliyinə müsahibə verib.**

Öncə agentliyin əməkdaşı cənab Prezidentə müsahibə üçün təşəkkürünü bildirib. Azərbaycan Silahlı Qüvvələrinin Dağlıq Qarabağda əks-hücuma başlamasının artıq bir ayının tamam olduğunu vurğulayan jurnalist, ötən ayı münaqişənin hərbi-siyasi nizamlanması baxımından necə qiymətləndirdiyini soruşub.

Prezident İlham Əliyev cavabında Azərbaycan Ordusunun döyüş meydanında üstünlüyünü sübut etdiyini, işğal edilmiş ərazilərin xeyli hissəsinin bu bir ay ərzində azad olunduğunu deyib: "Azərbaycan Ordusunun dünyada ən yaxşı döyüş qabiliyyətinə malik ordulardan biri hesab edilməsi əbəs deyildi. Ölkələrin hərbi potensialının dəyərləndirilməsi ilə məşğul olan qurumların vaxtaşırı dərc etdiyi reytinqlərə əsasən, Azərbaycan Ordusu dünyanın aparıcı 50 ordusu sırasındadır. Həm peşəkarlıq, həm təlim, həm döyüş qabiliyyəti, ən başlıcası mənəvi döyüş ruhu, əlbəttə ki, Azərbaycan Ordusunun texniki təchizatı da çox cəhətdən bizim uğurumuza kömək edib".

Prezident İlham Əliyev erməni tərəfinin atəşkəs rejimini artıq üçüncü dəfə kobud şəkildə pozduğunu təəssüflə qeyd edib: "Biz istərdik ki, hərbi faza danışıqlar masası arxasında başa çatsın, Azərbaycan ərazilərinin bundan sonra da işğaldan azad olunması məsələləri həll edilsin".

Prezident əlavə edib ki, biz Ermənistan tərəfindən onların yüksək rəhbərliyinin şəxsində öhdəlik almalıyıq ki, qoşunları işğal olunmuş ərazilərdən çıxaracaqlar. Qeyd edib ki, erməni rəhbərliyindən bu cür öhdəlik alınandan və bu, ATƏT-in Minsk qrupunun həmsədrləri tərəfindən təsdiq ediləndən dərhal sonra biz hərbi əməliyyatları dayandırmağa hazırıq.

"Atəşkəs üç dəfə pozulub və hər üçü erməni tərəfin təqsiri üzündən baş verib. Bilirsiniz ki, kasetli raketlərlə atəşlər nəticəsində Bərdədə dinc vətəndaşlar, o cümlədən 7 yaşlı qız həlak olub. Bərdə münaqişə zonası deyil. Yəni bu, Vaşinqtonda razılaşdırılmış atəşkəsin kobud şəkildə pozulmasıdır. Bundan əvvəl Moskvada razılaşdırılmış atəşkəs elə ertəsi gün ermənilər tərəfindən Ermənistan ərazisindən Gəncəyə ballistik raket atılması yolu ilə pozuldu. Bunun nəticəsində 10 nəfər həlak oldu. Gəncəyə ballistik raketlərlə ikinci hücum nəticəsində bu dinc şəhərdə daha çox, ümumilikdə isə 30-a yaxın insan həlak oldu. Ona görə də atəşkəsə riayət edilməməsi bizim təqsirimiz deyil. Buna görə erməni tərəfi indiyə qədər işğal altında saxladıqları ərazilərdən çıxacaqları barədə öhdəlik götürməlidir. Buraya Ağdam rayonunun bir hissəsi, Laçın rayonu bütünlüklə və Kəlbəcər rayonunun bir hissəsi daxildir. Təbii ki, o halda biz siyasi nizamlamaya keçməyə hazırıq. Siyasi nizamlama çox aspektləri əhatə edəcək. Baza prinsipləri bizim tərəfimizdən qəbul edilib, ermənilər tərəfindən rədd edilib. Lakin Ermənistanın baş nazirinin təcavüzkar bəyanatı onu göstərir ki, onlar vasitəçilərə bir söz deyir, özləri isə tamam başqa iş görürlər", - deyə Prezident bildirib.

O, həmçinin Azərbaycanın region ölkələri olan Rusiya, Türkiyə, İran, və Gürcüstanla etimada əsaslanan sıx tarixi, mədəni, siyasi münasibətləri olduğunu deyib. Ermənistanın münaqişəni beynəlmiləlləşdirmək cəhdlərini pisləyib.

Prezident İlham Əliyev erməni tərəfinin dinc şəhərləri atəşə tutması hallarının tez-tez baş verdiyini, bundan başqa, onların Azərbaycanın mühüm enerji infrastrukturunu - Mingəçeviri, qaz kəmərlərini, neft kəmərlərini də atəşə tutduğunu bildirib. Bu atəşlərə görə Ermənistanın lazımınca qınanmaması barədə Prezident İlham Əliyev rəsmi Bakıdan daim bəyanatların səsləndirilməsi məsələsinə də aydınlıq gətirib: "1993-cü ildə BMT Təhlükəsizlik Şurasının qətnamələri qəbul edilib. Bəli, sonra biz öz səylərimizlə BMT Baş Assambleyasının və Qoşulmama Hərəkatının qətnamələrinin qəbul edilməsinə nail olduq. Hətta Avropa Parlamentinin də. Lakin onlar, əlbəttə, nizamlama üçün hüquqi baza yaratdılar, amma ittihamları eşitmədik. Hətta atəşkəsin Ermənistan tərəfindən pozulması aydın olduqda belə. Moskvada atəşkəs əldə olunmasından heç bir gün keçməmiş onlar Gəncəyə zərbə endirdilər. İndi də, Vaşinqtonda atəşkəs razılaşdırıldıqdan bir gün sonra, özü də bunun üçün onlar yalvarırdılar. Axı, atəşkəs barədə yalvaran onlar idi. Moskvada da, indi də Fransa tərəfinin fəaliyyəti nəticəsində əldə edilmiş atəşkəs pozulub. Bir gün keçmədi, onlar Bərdəni atəşə tutdular. Buna qədər isə onlar Tərtərdə dəfn mərasimini atəşə tutmuşdular. Orada 4 nəfər həlak olmuşdu. Bu, qeyri-insani əməllər onu göstərir ki, baxın, görün, biz kiminlə vuruşmağa məcburuq. Onlar üçün nə əxlaq normaları var, nə şərəf, nə ləyaqət. Ümumiyyətlə, müharibənin necə aparılması barədə anlayışları yoxdur. Ona görə də onlar müharibəni belə aparırlar. Bilirsinizmi, hətta hər bir rəqibə, düşmənə də müəyyən dərəcədə hörmət etmək lazımdır, çünki qaydalar, o cümlədən müharibənin aparılması qaydaları var. Erməni tərəfi üçün bu qaydalar yoxdur. Ona görə də biz Ermənistanın pislənəcəyinə o qədər də ümid etmirdik. Bizi qardaş Türkiyə dəstəkləyir. Bizi Pakistan, Türkiyə Prezidenti, Pakistanın Baş Naziri açıq dəstəkləyirlər. Onlar dəfələrlə bizi dəstəklədiklərini ifadə ediblər. Bizi çox ölkələr dəstəkləyir. Lakin biz dünya birliyi dedikdə, nə üçünsə həmişə Qərb dünyası başa düşülür. Bax, oradan biz həmrəylik gözləmirdik və gözləmirik".

Müsahibəsində Prezident İlham Əliyev Qarabağ münaqişəsi başa çatdıqdan sonra regionda vəziyyətin geosiyasi inkişafı haqqında da danışıb: "Düşünürəm ki, bu gün bizim regionda regionun gündəliyini müəyyən edən, əməkdaşlığa istiqamətlənən aparıcı siyasi xadimlər arasında çox müsbət əməkdaşlıq formatı yaranır. Çünki bu gün Türkiyə, İran, Rusiya və Azərbaycan arasında həm üçtərəfli, həm də ikitərəfli formatlarda fəal əməkdaşlıqdan danışmaq olar. Bizim üçtərəfli formatımız mövcuddur. Düşünürəm ki, gün gələcək, biz artıq dördtərəfli formatda da fəaliyyət göstərəcəyik. Bu, həm tarixi, həm iqtisadi, həm nəqliyyat, həm geosiyasi və ən başlıcası, bu regionda təhlükəsizliyin möhkəmləndirilməsi baxımından təbii olacaq. Buna görə Ermənistan bundan sonra da Qafqazın bədənində yad cisim kimi qalmamalıdır".

Prezident, İrəvanın Ermənistana necə verilməsi barədə tarixi faktları da xatırladıb. Bildirib ki hazırkı vəziyyətdə Ermənistan Azərbaycan və Türkiyə ilə münasibətləri normallaşdırmalıdır.

Prezident rəsmi Bakının Minsk qrupunun formatının dəyişdirilməsinə münasibəti, ekspertlərin təklif etdikləri 2+2 formulunun rəsmi Bakı üçün nə dərəcədə məqbul olması, münaqişənin nizamlanmasında irəliləyiş üçün vasitəçilərin Ermənistana qarşı sanksiyaları, atəşkəs monitoringinin mexanizminin müzakirəsi, Qarabağ barəsində Ermənistanın baş naziri ilə yenidən danışıqların aparılması, münaqişənin nizamlanmasında iri dövlətlərin rolu və s. mövzularda suallarıda cavablandırıb.




AMEA-nın prezidenti, akademik Ramiz Mehdiyevin Fransa Respublikasının prezidenti, cənab Emmanuel Makrona açıq məktubu

səh. 2 ⇨



Gənc alimlər Ali Baş Komandanın və ordumuzun vətən uğrunda apardığı mübarizəni dəstəkləyirlər

səh. 3 ⇨



Dövrümüzün ekoloji problemlərinin həllində biotexnologiyaların xüsusi rolu

səh. 5 ⇨



Azərbaycan florası yeni dövrdə: gələcəyə səyahət

səh. 7 ⇨

# Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik Ramiz Mehdiyevin Fransa Respublikasının prezidenti, cənab Emmanuel Makrona açıq məktubu

**Hörmətli cənab Prezident!**

Məlum olduğu kimi, son günlərdə Fransada İslam peyğəmbəri Hz.Məhəmmədi (s) hədəf alan təhqiredici karikaturaların sürətlə yayılması və bu xoşagəlməz təmayülün V Respublikanın rəhbərliyi, şəxsən Sizin tərəfinizdən açıq şəkildə dəstəklənməsi müsəlman dünyasının haqlı hiddəti və etirazı ilə qarşılanmışdır. Bu qəzəbin təzahürü kimi Fransanın Yaxın və Orta Şərq regionunda fəaliyyət göstərən diplomatik missiyalarının rəhbərləri bu ölkələrin xarici işlər nazirliyinə çağırılaraq onlara etiraz notası təqdim edilmiş, o cümlədən fransız məhsullarının boykotu kampaniyası geniş vüsət almışdır. Əhalisinin böyük əksəriyyətini müsəlmanların təşkil etdiyi və çoxəsrlik tolerantlıq ənənələrinin hakim olduğu Azərbaycanda da Fransa rəhbərliyinin islamafob davranışı dərin narahatlıq doğurmuşdur.

Təbii ki, karikatura qalmaqalına səbəb olan hadisə - 16 oktyabr 2020-ci il tarixində orta məktəbin müəllimi Samuel Patinin dini hislərinin həmyaşıdları önündə təhqir edilmiş müsəlman yeniyetmə tərəfindən qətlə yetirilməsi də bizdə eyni qəzəb və təəssüf hisləri doğurmuşdur. Belə davranış formasının hər hansı bəraəti, izahı ola bilməz. Zorakılığın bütün təzahürləri eyni dərəcədə qəbuledilməzdir.

Ancaq baş verənlərə obyektiv hüquqi qiymət vermək, dözümsüzlük hallarına və dini zəmində kütləvi zorakılığa qarşı qabaqlayıcı tədbirlər görmək əvəzinə, Fransa rəhbərliyi İslam dəyərlərini, xüsusilə də Məhəmməd Peyğəmbəri təhqir etmək yolunu seçmiş, bununla da özünə qarşı müsəlman dünyasında böyük etiraz dalğası oyatmışdır. Fransada əvvəllər də İslam peyğəmbərinin təhqir edilməsi kimi hadisələr baş vermiş və əksər hallarda faciəli sonluqla nəticələnmişdir. 2015-ci ildə Fransanın məşhur "Şarl Abdo" jurnalının redaksiyasında baş vermiş qətliam bunun ən bariz nümunələrindəndir.

O da bir həqiqətdir ki, karikatura qalmaqallarının təşkilatçılarına heç zaman Fransanın əvvəlki dövlət başçıları tərəfindən indiki qədər açıq siyasi dəstək verilməmiş, onların hərəkətlərinə belə aqressiv formada qanuni don geyindirmək cəhdləri müşahidə olunmamışdır. Fransanın daxili işlər naziri Jerald Darmanin müsəlmanların dini duyğularını alçaldan karikaturaların, cizgi filmlərinin açıq şəkildə yayımlanmasının qanunauyğun olduğunu bildirməklə və Prezident E.Makron isə öz növbəsində onu dəstəkləməklə Fransada tədricən dövlət səviyyəsində fundamental insan haqlarından, tolerantlıq kimi ümumbəşəri dəyərdən imtina edildiyi haqqında rəy formalaşdırmışlar.



Cənab Makron, Siz çoxsaylı xalqların yaşadığı və müxtəlif etiqadların birgə mövcud olduğu hüquqi bir dövlətin başçısı olduğunuzu unutmayın. Fransa konstitusiyasına əsasən Siz bütün fransızların, eləcə də Fransanın müsəlman vətəndaşlarının prezidentisiniz. Vətəndaşların haqlarını qorumaq və onların fundamental hüquq və azadlıqlarına hörmətlə yanaşmaq Sizin ən mühüm vəzifələrinizin sırasına aiddir. Dini zəmində ayrıseçkilik salaraq Fransa vətəndaşlarının bir qisminin dini duyğularının təhqirinə yaşıl işıq yandırılması, ilk növbədə Fransa qanunvericiliyinin kobudcasına pozulması deməkdir. Həmçinin, Fransa rəhbərliyinin bu məsələdə tutduğu dözümsüz mövqe fransız xalqının öz qanı və əzmkar mübarizəsi nəticəsində Böyük Fransa İnqilabından indiyədək bərqərar etdiyi dəyərlərin, hüquqi normaların üzərindən xətt çəkildiyi mənasını verməkdədir.

Bəli, istisna etmirəm ki, Sizin İslam dəyərlərinə, xüsusilə də Hz.Məhəmmədə qarşı tutduğunuz mövqe dünyagörüşünüzün məhsuludur. Təbii ki, hər kəs bu və ya digər etiqada, yaxud tarixi şəxsiyyətə yanaşmada sərbəstdir. Kiminsə bir başqasına öz baxışlarını zorla qəbul etdirməsi mümkün deyil. Ancaq istənilən halda bu sərbəstliyin sərhədləri digərlərinin duyğularını təhqir edəcək qədər hüdudsuz ola bilməz. Ən əsası isə, cənab Makron, Siz və komandanızın bəzi üzvləri tutduqları ali dövlət vəzifələrinin məsuliyyətini dərk etməli, kin və rəğbət duyğularını bir kənara qoyaraq hüququn tələblərini, Fransanın yüksək mənafelərini rəhbər tutmağı bacarmalısınız.

Bütün bunlarla yanaşı, cənab Makron, yaxşı olar ki, Siz Məhəmməd Peyğəmbərin fəaliyyətini, şəxsiyyətini və irsini diqqətlə, stereotiplərin əsirliyindən azad olaraq obyektiv şəkildə öyrənəsiniz. Bu Sizə VII əsrdə yaşayan bu görkəmli, nəcib şəxsiyyətin bəşəriyyət tarixində oynadığı mütərəqqi rolun həqiqi missiyasını anlamağa kömək edəcək. Siz əmin olacaqsınız ki, Hz.Məhəmmədin 14 əsr öncə yaratdığı demokratik siyasi ənənəyə çatmaq üçün Qərb əsrlərlə yol qət etməli olmuş, məhz onun bərqərar etdiyi dəyərlər sisteminin nəticəsində Avropa üçün səciyyəvi olan faşizm, antisemitizm kimi hallar İslam dünyasında heç zaman müşahidə olunmamışdır.

Sizin diqqətinizə bir məqamı da çatdırmağı zəruri hesab edirəm. Avropa müstəmləkəçilərinin Yaxın və Orta Şərq ölkələrində XVIII-XX əsrlərdə törətdikləri cinayətlər, qətliamlar və talanlar hər kəsə yaxşı məlumdur. Fransanın müstəmləkəçilik tarixi də inkaredilməz bir həqiqətdir. Bütün bunların fonunda Avropa müstəmləkəçilərinə qarşı müqavimət göstərmiş müsəlman xalqlarının nümayəndələri heç zaman baş verənləri xristianlıqla, o cümlədən də həmin dinin peyğəmbəri İsa Məsihlə qətiyyən əlaqələndirməyiblər. Əksinə, İsa Məsihə müsəlman ilahiyyatçıları və mütəfəkkirləri daim böyük ehtiramla yanaşmış, onu peyğəmbərlik missiyasının ən böyük nümayəndələrindən biri kimi qəbul etmişlər. Qeyd etdiyim ənənə İslam dinindən, Qurani-Kərimin ehkamlarından, Hz.Məhəmmədin sünnəsindən qaynaqlanan bir mədəniyyətə söykənir.

Müsəlmanlar heç zaman Avropanın yetişdirdiyi Hitler və Mussolini kimi faşist rəhbərlərinə, Torkvemada kimi inkvizisiya cəlladlarına görə xristianlıq dinini, İsa Məsihi müqəssir saymamış, bu müqəddəs dəyərlərə hücum etməmişlər. Zənnimcə, ən böyük rasionallıq, tolerantlıq və mədəniyyət də məhz budur. İslam pərdəsi altında terror və zorakılıq törədən bir qrup fanatikə görə 14 əsr bundan əvvəl yaşamış və həyatının bütün mərhələlərində sülh, qardaşlıq təbliğatçısı olmuş Məhəmməd Peyğəmbərə hücum etmək bəsit təfəkkürün, mədəniyyət qıtlığının təzahüründən savayı bir şey deyil.

Təəssüf hissi ilə qeyd etməliyəm ki, Sizin mühüm xarici və daxili siyasət məsələlərində şəxsi rəğbət, yaxud nifrət hislərinizə söykənərək qərar vermək adətinizdən Azərbaycan xalqı da əziyyət çəkməkdədir. Sizin cari ilin 27 sentyabr tarixindən etibarən Azərbaycan ordusunun Qarabağda beynəlxalq hüququn bütün normalarına uyğun olaraq başladığı anti-terror əməliyyatına verdiyiniz reaksiya subyektivliyin və tərəfkeşliyin açıq-aşkar nümunəsi kimi həmişəlik azərbaycanlıların yaddaşında qalacaq. Azərbaycanın Fransanın özü də daxil olmaqla bütün dünya tərəfindən tanınmış Dağlıq Qarabağ bölgəsini və ətrafındakı 7 rayonu 30 ilə yaxın işğal altında saxlayan Ermənistana dəstək verməklə Siz ölkənizin ATƏT-in Minsk qrupu çərçivəsində üzərinə götürdüyü vasitəçilik missiyasına qarşı çıxmış olursunuz. Siz bilməlisiniz ki, Azərbaycanın ərazi bütövlüyünü təsdiq edən BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinin icrasına əngəl törətməklə dünyada İkinci Dünya Müharibəsindən sonra formalaşmış hüquqi münasibətlər sisteminin nüfuzdan salınmasına təkan vermiş olursunuz.

Hər vəchlə Dağlıq Qarabağdakı kriminal rejimin, həmçinin təcavüzkar Ermənistanın hərəkətlərinə bəraət qazandıqmağa çalışan Fransa rəhbərliyi və mətbuatı nədənsə Gəncə, Mingəçevir, Bərdə, Tərtər şəhərlərində dinc Azərbaycan vətəndaşlarının raket hücumları nəticəsində qətlə yetirilməsi kimi hərbi cinayətlərə göz yumur. Üzərinə sülhü təmin etmək missiyasını götürmüş bir dövlətin rəhbəri olaraq Siz bu cür açıq-aşkar ermənipərəstlikdən uzaq durmalı, Azərbaycan Prezidenti cənab İlham Əliyevin dediyi kimi xalqımızdan üzr istəməlisiniz. Unutmayın ki, uşaq qatillərini, başqa ölkənin ərazisini işğal altında saxlayan cinayətkarların himayədarı qismində tarixə düşmək hər kəsə, o cümlədən də Sizə başucalığa gətirə bilməz.

Həmçinin, Sizin timsalınızda erməni işğalına dəstək olan, Azərbaycanın haqq işinə qarşı çıxmağa çalışan hər kəs bilməlidir ki, bu qəbildən olan cəhdlər əbəsdir. Prezident İlham Əliyevin qətiyyəti və ordumuzun rəşadəti, xalq-dövlət həmrəyliyi gec-tez Qarabağ müharibəsində Azərbaycanın haqq işinin təntənəsini təmin edəcək. Heç bir xarici qüvvə buna mane ola bilməyəcəkdir. Qələbə haqqındır!

*Hörmətlə,*

**Ramiz MEHDİYEV,**
**Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik**

# Akademik Ramiz Mehdiyevin Qarabağ həqiqətlərilə bağlı məqaləsi Livanda tanınmış "əl-Məyadin" telekanalının rəsmi saytında

**25 oktyabr 2020-ci il tarixində AMEA-nın prezidenti, akademik Ramiz Mehdiyevin "Əcnəbi oxucunun diqqətinə Qarabağ həqiqətləri" adlı məqaləsi Livanın tanınmış "əl-Məyadin" telekanalının rəsmi saytında dərc edilmişdir.**

Məqalədə müəllif Qarabağ tarixinin bütün dövrlərini xronoloji qaydada təhlil etmişdir. Qarabağın zəngin arxeologiyası haqqında bəhs edilən giriş hissəsindən sonra akademik bölgənin Qafqaz Albaniyası və Ərəb xilafəti dövründəki tarixinə geniş diqqət ayırmış, tanınmış xarici və azərbaycanlı alimlərin tədqiqatları əsasında uydurma erməni iddialarına münasibət bildirmişdir. Xristianlıq pərdəsi altında qədim alban irsinin mənimsənərək bütün dünyaya yanlış olaraq erməni tarixinin bir parçası kimi təqdim edilməsi məsələsi üzərində xüsusilə dayanan AMEA prezidenti ərəbdilli oxucuları bu təbliğata uymamağa çağırır.

Məqalənin digər bir qismində isə akademik Ramiz Mehdiyev Qarabağın mədəni mərkəzi olan Şuşa şəhərinin Azərbaycan mədəniyyətinin və elminin tarixində oynadığı müstəsna rola toxunmuş, bu şəhərin yetişdirdiyi görkəmli şəxsiyyətlər haqqında məlumat vermişdir.

Yekunda isə müəllif Qarabağın hətta sovet dövründə belə Azərbaycanın tərkibində olduğunu və dünya birliyi tərəfindən yekdilliklə Azərbaycanın ayrılmaz parçası kimi qəbul edildiyini xatırladaraq erməni işğalına və iddialarına son qoyulması üçün çağırış edir.

Məlumat üçün qeyd olunmalıdır ki, "əl-Məyadin" telekanalı Livanın Beyrut şəhərində yerləşir. "əl-Məyadin" ərəb dünyasında yayımlanan "əl-Cəzirə", "BBC News Arabic", "əl-Ərəbiyyə" və "Sky News Arabia" birlikdə 5 ən böyük televiziya kanalından biri hesab olunur. Kanalın 500-dən çox əməkdaşı və dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən geniş müxbir şəbəkəsi var. "əl-Məyadin" kanalı ərəb ölkələrinin hamısında sərbəst şəkildə yayımlanmaqdadır.

AMEA-nın prezidenti, akademik Ramiz Mehdiyevin Qarabağla bağlı məqaləsinin belə bir nüfuzlu informasiya resursunda dərc edilməsi, tarixi həqiqətlərin çoxmilyonlu ərəb dünyasına çatdırılması baxımından böyük əhəmiyyətə malikdir.



# Beynəlxalq aləm Ermənistanın mülki əhalini qətlə yetirməsi ilə bağlı mövqe nümayiş etdirmir



**Ermənistan beynəlxalq ictimaiyyətin gözü qarşısında aralarında qadınlar, uşaqlar, qocalar da olmaqla, mülki əhalini güllələbaran edərək onları qətlə yetirir, evlərini dağıdır. Çox təəssüf ki, beynəlxalq aləm, o cümlədən ATƏT-in Minsk qrupu bu məsələ ilə bağlı obyektiv bir mövqe nümayiş etdirmir.**

Bunu AMEA-nın birinci vitse-prezidenti, akademik İsa Həbibbəyli deyib.

Onun sözlərinə görə, beynəlxalq aləmin belə mövqeyi onun Dağlıq Qarabağ münaqişəsinin həlli üçün ya ümumiyyətlə çalışmadığını, ya da Ermənistanın xeyrinə çalışdığını göstərir.

Azərbaycanın mülki əhalini hədəf almadığını vurğulayan İ.Həbibbəyli qeyd edib ki, buna baxmayaraq, Ermənistan ordusu Gəncə, Mingəçevir, Ağdam, Füzuli, Tərtər və digər başqa ərazilərdə dinc insanalrı atəşə tutur və bu siyasətini davam etdirir. Sentyabrın 27-dən indiyədək Ermənistan silahlı qüvvələrinin atdığı raket və ağır artilleriya hücumları nəticəsində 90 nəfər həlak olub. Onlardan 23-ü qadın, 11-i uşaqdır. İndiyədək yaralanan 392 nəfər mülki şəxslərin də 84-ü qadın, 48-i uşaqdır:

"Ermənistanın bu siyasətini davam etdirməsi onun döyüş meydanındakı məğlubiyyətinin təzahürüdür. Ermənistanın mülki əhalini atəşə tutmasına beynəlxalq ictimaiyyətin göz yumması isə çox narahatedici məsələdir. Hesab edirik ki, dünya Ermənistanın bu vandalizminə qarşı kəskin etirazını bildirməlidir".

# Qarabağda aparılacaq çoxşaxəli elmi tədqiqatların prioritet istiqamətləri müəyyənləşdiriləcək

**Azərbaycan Milli Elmlər Akademiyası Biologiya və Tibb Elmləri Bölməsinin (BTEB) Elmi şurasının iclası keçirilib.**



Karantin qaydalarına əməl olunması və sosial məsafənin gözlənilməsi ilə təşkil olunan iclası giriş sözü ilə açan AMEA-nın vitse-prezidenti, Elmi şuranın sədri akademik İradə Hüseynova iştirakçıları gündəlikdəki məsələlərlə tanış edib.

İlk olaraq akademik İradə Hüseynova bildirib ki, Azərbaycan dövləti və müqəddəs xalqımız uzun illər boyu gözlədiyimiz haqq savaşına qalxıb. Cənab Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Azərbaycan ordusu hazırda tarix yazmaqda, doğma Qarabağımız düşmən tapdağından azad edilməkdədir. Natiq tezliklə azad olunmuş ərazilərdə AMEA-nın, o cümlədən BTEB-in alimləri tərəfindən aparılacaq çoxşaxəli elmi tədqiqatların prioritet istiqamətlərinin müəyyənləşdirilməsinin vacibliyinə diqqət çəkib və əmin olduğunu bildirib ki, ən qısa zamanda regionun fauna və florasının, torpaq və su resurslarının tədqiqinə başlanılacaq. Akademik İradə Hüseynova AMEA-nın Genetik Ehtiyatlar İnstitutunun Ağdərədə mövcud olmuş Qarabağ Elmi Tədqiqat Bazasında da iri həcmdə tədqiqat işlərinin aparılacağı günün uzaqda olmadığını deyib. Şuranın sədri institutların cəbhəyə və döyüşən ordumuza dəstək olması ilə bağlı aksiyalar təşkil edilməsinin vacibliyinə diqqət çəkib, bu sahədə görülmüş işlərdən danışıb. İclas iştirakçıları ölkə başçısını və onun Azərbaycanın gələcəyi uğrunda apardığı şərəfli mübarizəni yekdilliklə dəstəklədiklərini bildiriblər.

Sonra AMEA-nın Torpaqşünaslıq və Aqrokimya İnstitutunun Ekoloji Təmiz Kənd Təsərrüfatı üzrə Regional Təcrübə və Resurs Mərkəzinin statusu və gələcək fəaliyyəti ilə bağlı təkliflərin hazırlanması üzrə komissiya yaradılması haqqında məsələyə baxılıb və müvafiq qərar qəbul edilib.

Daha sonra gündəlikdəki digər məsələlərin müzakirəsi aparılıb. İnstitut direktorları AMEA-da magistraturaya yeni qəbul edilmiş gənclərin təhsilinin və elmi tədqiqatlarının təşkili haqqında məlumat veriblər. Akademik İradə Hüseynova bölmədə Molekulyar Biologiya və Biotexnologiyalar, Genetik Ehtiyatlar və Botanika institutları ilə yanaşı, növbəti ildə daha üç institutda magistratura təhsilinin aparılacağını qeyd edib və 2021-2022-ci tədris ili üçün qəbul sifarişlərinin təqdim edildiyini bildirib.

İclasın gündəliyində yer alan növbəti məsələ BTEB-in institutlarında doktorantura və dissertanturaya növbət qəbulun təşkili və keçirilməsi barədə olub.

İnstitutlarda qəbul prosesinin yüksək səviyyədə və şəffaf şəkildə təşkili ilə bağlı tapşırıqlar verilib.

Akademik İradə Hüseynova Elmi şuranın üzvlərinin diqqətini pandemiyanın hazırkı dövründə görülməli olan tədbirlərə çəkib.

İclasda AMEA-nın Dendrologiya və Mikrobiologiya institutlarının elmi şuralarının tərkibində qismən dəyişiklik edilməsi haqqında qərarlar qəbul edilib.

Daha sonra bölmənin bəzi əməkdaşlarının BTEB-in Fəxri fərmanına layiq görüldüklərini diqqətə çatdıran akademik İradə Hüseynova təltif edilən alimlərin elmi fəaliyyətlərini yüksək qiymətləndirib. Pandemiya dövrü ilə bağlı qaydalar nəzərə alınaraq fəxri fərmanların təqdimatı təxirə salınıb.

# Gənc alimlər Ali Baş Komandanın və ordumuzun vətən uğrunda apardığı mübarizəni dəstəkləyirlər

**AMEA-nın akademik-katibi, akademiyanın müxbir üzvü Əminağa Sadıqov Gənc Alim və Mütəxəssislər Şurasının (GAMŞ) İdarə Heyətinin üzvləri ilə görüşüb.**

AMEA-nın Əsas binasında baş tutan görüşdə, həmçinin AMEA Rəyasət Heyəti aparatının Elm və təhsil idarəsinin rəisi, iqtisad elmləri üzrə fəlsəfə doktoru Fail Kazımov, Xarici əlaqələr idarəsinin rəisi, biologiya üzrə fəlsəfə doktoru, dosent Esmira Əlirzayeva, AMEA GAMŞ-ın sədri, fizika üzrə fəlsəfə doktoru, dosent Famin Salmanov və gənc alimlər iştirak ediblər.

Əvvəlcə şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Görüşdə çıxış edən AMEA-nın müxbir üzvü Əminağa Sadıqov bildirib ki, son bir ayda müasir Azərbaycan tarixinin ən şanlı dövrünü yaşayırıq və bu şərəfli günləri bizə bəxş edən Prezident, Ali Baş Komandan İlham Əliyev və rəşadətli Azərbaycan Ordusudur. Ali Baş Komandan İlham Əliyevin həm cəsarətli sərkərdə, həm də yüksək peşəkarlığa malik diplomat kimi qətiyyət, siyasi iradə nümayiş etdirdiyini deyən Ə.Sadıqov bu gün düşməni ən çox qorxudan nüansın ölkəmizdə nümunəvi prezident-xalq-ordu birliyinin olmasının olduğunu söyləyib.

Ə.Sadıqov Azərbaycan Milli Elmlər Akademiyasının son bir ayda ölkəmizdə baş verən proseslərdə yaxından iştirak etdiyini, müharibənin başladığı ilk saatlardan AMEA Rəyasət Heyətinin Qarabağın azadlığı məsələsində Prezident İlham Əliyevin ətrafında sıx birləşdiyini və bütün imkanları ilə ordumuzun yanında olduğunu bəyan etdiyini diqqətə çatdırıb. Natiq bu dövr ərzində başda AMEA-nın prezidenti, akademik Ramiz Mehdiyev olmaqla, Rəyasət Heyətinin üzvlərinin, institut direktorları və alimlərimizin yerli və xarici mətbuatda məqalələri, müsahibələri ilə Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdırdığını vurğulayıb. Qeyd edib ki, akademik Ramiz Mehdiyevin çağırışı ilə AMEA-nın 48 elmi müəssisə və təşkilatından Silahlı Qüvvələrin Yardım Fonduna 350 min manat ianə köçürülüb, Yüksək Texnologiyalar Parkı və digər qurumlar tibb məntəqələri və hərbi hissələrə çox sayda zəruri tibbi ləvazimatlar, mühərrik və sürtkü yağlarından ibarət yardım göndərib, həmçinin alimlərimiz qan verməK üçün növbələrə yazılıblar.





Bu gün baş verən proseslərdə gənclərin üzərinə böyük məsuliyyət düşdüyünü deyən alim onların ilk növbədə yüksəkixtisaslı, müasir texnologiyalara bələd, peşəkar kadr olmaq üçün səy göstərmələrinin zəruriliyini vurğulayıb. "Ölkə başçısının çıxışlarını diqqətlə izləməli, nəticələr çıxarmalı və öz fəaliyyətimizi bunun əsasında qurmalıyıq. İnformasiya müharibəsində ölkəmizin əleyhinə aparılan kampaniyalara elmi, intellektual gənclər tutarlı cavab verməli, ayıq-sayıq və digər həmvətənlərimizə nümunə olmalıdırlar", - deyə Ə.Sadıqov diqqətə çatdırıb.

Qarabağı Azərbaycanın mədəni beşiyi, dilbər guşəsi adlandıran natiq 30 il ərzində işğalçıların qeyri-qanuni istilası nəticəsində sözügedən ərazidə meşələrin məhv edildiyini, təbii sərvətlərimizin qısa müddətdə talanmağa çalışıldığını, eləcə də toponimlərimizin dəyişdirildiyini söyləyib, burada gələcək elmi tədqiqatlar üçün geniş mövzuların olduğunu bildirib.

Bundan əlavə, gənc alimlərin fəaliyyətini karantin rejiminin tələblərinə uyğun qurmağı tövsiyə edib, pandemiyanın düşmən qədər təhlükəli olduğunu vurğulayıb.

Tədbirdə çıxış edən iqtisad elmləri üzrə fəlsəfə doktoru Fail Kazımov bütün gəncləri şanlı ordumuzun qazandığı qələbələr münasibətilə təbrik edib. O, ordumuzun Dağlıq Qarabağda həyata keçirdiyi zəfər yürüşünün dövlət başçımız, Ali Baş Komandan İlham Əliyevin apardığı məqsədyönlü və uzaqgörən siyasətinin nəticəsi olduğunu vurğulayıb. F.Kazımov düşmən üzərində mübarizənin müxtəlif cəbhələrdə aparılmasının vacibliyinə toxunub və bu istiqamətdə akademik fəaliyyətin əhəmiyyətini diqqətə çatdırıb.

AMEA gənclərinin "Researchgate", "Akademia.edu" kimi akademik sosial şəbəkələrdə aktivləşməsi üçün Elm və təhsil idarəsinin həyata keçirdiyi tədbirləri xatırladan alim Azərbaycan həqiqətlərinin elmi üslubda dünyaya çatdırılması üçün vacib işlərin görüldüyünü söyləyib, bu istiqamətdə çap olunmuş elmi əsərlərin akademik sosial şəbəkələrdə yerləşdirilməsinin vacibliyini bildirib. "Bu, xarici alimlər tərəfindən ölkəmizin tarixi və mədəniyyəti ilə bağlı dolğun məlumatların əldə olunmasında böyük rol oynayır", - deyə F.Kazımov iştirakçıların diqqətinə çatdırıb. Alim çıxışının sonunda Azərbaycan gənclərini informasiya müharibəsində daha aktiv olmağa, bu istiqamətdə dövlətimizin tövsiyə və qərarlarına riayət etməyə çağırıb, tez bir zamanda tarixi qələbəmizin elan olunacağına öz əminliyini ifadə edib.

Görüşdə Xarici əlaqələr idarəsinin rəisi, biologiya üzrə fəlsəfə doktoru, dosent Esmira Əlirzayeva çıxış edərək bu gün ölkəmizdə misli görünməmiş birliyin nümayiş etdirildiyini, kitablarda oxuduğumuz Vətən sevgisinin canlı şahidi olduğumuzu deyib. Qeyd edib ki, bu gün ölkə başçısı İlham Əliyev diplomatiyası, əzmi, qətiyyəti, səbri ilə dünyanı heyran qoyub.

O, hazırda xaricdə təhsil alan gənclərimizin aktivlik nümayiş etdirdiyini, ölkəmizin tarixini, mədəniyyətini, incəsənətini dünyada tanıtdıqlarını söyləyib. Bundan əlavə, son aylarda AMEA alimlərinin beynəlxalq proqram və layihələrdə iştirakının statistikasını təqdim edib, göstəricilərin sevinməyə əsas verdiyini deyib.

Daha sonra çıxış edən AMEA GAMŞ sədri Famin Salmanov son hadisələrin ölkəmizin suveren dövlət kimi heç bir xarici qüvvədən asılı olmadan müstəqil siyasət apardığını bir daha sübut etdiyini söyləyib. Qeyd edib ki, bu gün super güclərin əsirinə çevrilmiş ermənilərin acizliyinə və dövlət terroruna bütün dünya şahidlik edir və onların gerçək xisləti açıq şəkildə özünü büruzə verir.

"Bütün Azərbaycan cəmiyyəti, o cümlədən gənc alimlərimiz müasir hərb tariximizdə qeydə alınan bu böyük qələbəmizi şərtləndirən əsas amillər sırasında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qətiyyətli və mətin siyasi iradəsini, həmçinin Azərbaycan Silahlı Qüvvələrinin sarsılmaz əzmini və günü-gündən artan qüdrətini görür və təqdir edir", - deyə Famin Salmanov vurğulayıb.

Şura sədri Ali Baş Komandanın liderliyi ilə qazanılan qələbələrin, o cümlədən 30 ilə yaxın erməni işğalı altında qalan Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, həmçinin digər rayonlara məxsus qəsəbə, kənd və hərbi strateji əhəmiyyətli yüksəkliklərin, qədim tarixi memarlıq abidəsi hesab edilən Xudafərin körpüsünün azad edilməsinin Azərbaycanın şanlı zəfər tarixinin ən çox vərəqlənən səhifələri olacağını söyləyib.

Prezident İlham Əliyevin son bir ayda 25-ə yaxın xarici televiziya və kütləvi informasiya vasitələrinə müsahibə verdiyini xatırladan F.Salmanov ölkə başçısının Azərbaycanın haqlı mövqeyini bütün dünyaya çatdırdığını, beynəlxalq siyasi arenada master klas nümayiş etdirdiyini deyib. Alim ölkə rəhbərliyi tərəfindən uğurlu daxili və xarici siyasətin, iqtisadi layihələrin həyata keçirildiyini, nəticədə müasir texnologiyalara əsaslanan güclü ordumuzun formalaşdırıldığını bildirib, bu gün hər kəsin Ali Baş Komandanın ətrafında sıx birləşdiyini vurğulayıb.

"Azərbaycanın çoxsaylı gənc alim və tədqiqatçısının üzvü olduğu Gənc Alim və Mütəxəssislər Şurası həmişəki kimi, bu gün də cənab Prezidentimizin yürütdüyü siyasəti alqışlayır, belə həssas və məsuliyyətli dönəmdə ölkəmizin və ordumuzun vətən uğrunda apardığı mübarizəni dəstəkləyir. Törədilən təxribatlar nəticəsində həlak olmuş dinc sakinlərimizə və torpaqlarımızın azad olunması uğrunda canından keçən vətəndaşlarımıza Allahdan rəhmət diləyir, ordumuza bu haqq mübarizədə yeni nailiyyətlər arzulayır. Azərbaycanın gənc alimləri böyük zəfərin şanlı komandanı kimi Ali Baş Komandanımız İlham Əliyevə və müzəffər ordusuna minnətdarlığını bildirir, ölkəmizin xoşbəxt gələcəyi və güclü dövlət kimi daha da inkişaf etdirilməsi hədəfində yeni bənzəri olmayan nailiyyətlər arzulayır", - deyə qeyd edib.

Sonra bir sıra gənc alimlər çıxış edərək mövzu ətrafında fikirlərini bölüşüb, səslənən tövsiyələr istiqamətində müvafiq addımların atılacağını bildiriblər.

# Ermənistan işğal olunmuş ərazilərimizdəki maddi-mədəniyyət abidələrini məqsədli şəkildə yerlə yeksan edib

**Dağlıq Qarabağda və onun ətrafında işğal olunmuş 7 rayonda Azərbaycan xalqına məxsus maddi-mədəniyyət abidələri, qədim qəbiristanlıqlar Ermənistan tərəfindən məqsədli şəkildə dağıdılıb yerlə yeksan edilib.**



Bunu AMEA-nın Folklor İnstitutunun direktoru, akademik Muxtar İmanov deyib.

Onun sözlərinə görə, 1990-cı illərin əvvəllərində Dağlıq Qarabağ ətrafında yerləşən yeddi Azərbaycan rayonunu, bütövlükdə Azərbaycan ərazisinin 20 faizini işğal edən Ermənistan Dağlıq Qarabağın Azərbaycan tərkibindən ayrılması və orada ikinci bir erməni dövlətinin yaradılması siyasətini həyata keçirib.

M.İmanov qeyd edib ki, Azərbaycanla Ermənistan arasında münaqişəyə səbəb olan Dağlıq Qarabağ da Azərbaycan ərazisidir və bu ərazi BMT tərəfindən, Ermənistan istisna olmaqla, dünyanın bütün dövlətləri tərəfindən məhz Azərbaycanın tərkib hissəsi kimi tanınıb. Hazırda da müharibə Azərbaycan ərazisində, - Azərbaycan sərhədləri daxilində gedir.

Akademik əlavə edib ki, Azərbaycanın münaqişə zonasından kənarda olan Gəncə və Mingəçevir kimi böyük şəhərlərinə raket zərbələri endirən Ermənistan hərbi toqquşmada da beynəlxalq qaydaları pozur.

M.Kazımoğlu Azərbaycan dövlətinin Dağlıq Qarabağda yaşayan erməni əsilli vətəndaşlarla bağlı heç bir problemi yoxdur: onlar Azərbaycan Konstitusiyasına və beynəlxalq hüquq normalarına uyğun olaraq Dağlıq Qarabağ ərazisində yaşamaqda davam edəcəklər:

"Azərbaycan dövlətinin başlıca problemi Azərbaycan torpaqlarının 20 faizini işğal etmiş Ermənistan ordusu ilədir. Azərbaycan hökuməti işğalçı Ermənistan ordusunun Azərbaycan ərazisindən çıxmasını tələb edir və belə hesab edir ki, Azərbaycanla Ermənistan arasında sülh danışıqlarını aparmaq işğala son qoyulduqdan sonra mümkündür".

# Azərbaycan həqiqətləri ərəb dünyasına çatdırılır











**AMEA-nın akad. Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun əməkdaşları ərəbdilli televiziya kanalları, eləcə də informasiya portalları vasitəsilə Azərbaycan həqiqətlərini, son zamanlar cəbhə bölgəsində və respublikamızın digər bölgələrində ermənilərin törətdikləri təxribatlar barədə məlumatları, həmçinin Ermənistanın azərbaycanlılara qarşı ötən əsrdə də törətdikləri cinayətləri dünya ictimaiyyətinə çatdırmaqda davam edirlər.**

İnstitutun elmi əməkdaşı Elnur Mustafayev oktyabrın 16-da Livan Respublikasının "Məyadin" televiziya kanalına müsahibə verib. Azərbaycanlı şərqşünas müsahibəsində Ermənistan hakimiyyətinin hərbi təxribatlara əl atdığı, dinc əhalini qadağan olunmuş silahlardan istifadə etməklə atəşə tutması, həmçinin yaşayış məntəqələrinə atılmış balistik raketlər nəticəsində mülki əhaliyə dəymiş maddi və mənəvi zərərlər haqqında ətraflı məlumat verib.

E.Mustafayev oktyabrın 17-də dünyanın nəhəng xəbər agentliklərindən biri olan "BBC Arabic"ə müsahibə verib. Azərbaycanlı şərqşünas, müsahibədə Ermənistan hərbi-siyasi qüvvələrinin Gəncə şəhərini məruz qoyduğu son terror hücumu barəsində məlumat verib. O, həmçinin hücum zamanı içərisində azyaşlılar da olmaqla həlak olmuş mülki vətəndaşlar haqqında söhbət açıb, Ermənistan hakimiyyətinin həyata keçirdiyi terror və işğalçılıq siyasəti haqqında məlumatları geniş ərəbdilli izləyici kütləsinə çatdırıb.

Oktyabr ayının 18-də "BBC-Arabic"in "Xəbərlər bülleteni" verlişinə növbəti müsahibəsində E.Mustafayev Ermənistan hakimiyyətinin atəşkəs qaydalarını pozduğunu, Gəncə, Ağdam, Tərtər və digər şəhərləri ağır silahlardan atəşə tutmasını qeyd edib. Bununla yanaşı, şərqşünas alim öz müsahibəsində beynəlxalq təşkilatların və ikili münasibətlər çərçivəsində dünya ölkələrinin qəbul etdiyi qərarlarda Azərbaycan Respublikasının ərazi bütövlüyünün təsdiq edildiyini və Qarabağ ərazisinin qədim Azərbaycan torpaqları olması barəsində informasiyaları da diqqətə çatdırıb.

E.Mustafayev oktyabrın 21-də Londonda yerləşən, "al-Arabi" telekanalına müsahibə verərək Ermənistan siyasi-hərbi hakimiyyətinin təxribat xarakterli addımları, Azərbaycanın qədim torpaqları olan Qarabağı işğal etməsi, region dövlətlərinə qarşı ərazi iddiaları qaldırmasını qeyd edib. O, məsələnin həllinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində mümkün olacağını bir daha ərəbdilli izləyicilərə çatdırıb.

E.Mustafayev oktyabr 22-də isə Əlcəzair Dövlət Radiosuna müsahibə verib. Müsahibədə o, Ermənistanın son təxribatları, Gəncə, Tərtər, Ağdam, Goranboy və s. yaşayış məntəqələrini ağır silahlardan atəşə tutması, hücumlar nəticəsində mülki əhaliyə dəymiş maddi və mənəvi zərərlər haqqında ətraflı məlumatları Əlcəzair xalqına çatdırıb. Bununla yanaşı, azərbaycanlı şərqşünas, Qarabağın erməni hərbi qüvvələri tərəfindən işğala məruz qalması, bir milyondan çox insanın öz yurdlarından didərgin düşməsi, işğal olunmuş ərazilərdə ermənilərin qeyri-qanuni şəkildə məskunlaşdırılması, o cümlədən həmin ərazilərdə Azərbaycana məxsus maddi, mədəni və dini abidələrin dağıdılması və digər məsələlər barəsində informasiyaları qeyd edib.

Alim İranın "əl-Aləm" və İraqın "əl-Afaq" telekanallarına verdiyi müsahibədə üçüncü atəşkəs rejiminin də Ermənistan tərəfindən pozulduğunu, beynəlxalq vasitəçilərin Ermənistana təzyiq göstərmədiyini, Azərbaycan Ordusunun Ermənistanın işğalına cavab olaraq legitim hüquqlarını bərpa etmək üçün əks həmlə həyata keçirdiyini ərəbdilli ictimaiyyətin diqqətinə çatdırıb.

Şərqşünaslıq İnstitutunun Ərəb ölkələri tarixi və iqtisadiyyatı şöbəsinin elmi işçisi Samid Bağırov isə İraqın "Əl-Afaq" telekanalına müsahibə verərək Azərbaycan respublikasının haqq mövqeyini, ordumuzun əks-həmlə əməliyyatının terrorçuluğa qarşı aparılan əməliyyat kimi qanuni və legitim olduğunu bildirib. Şərqşünas alim həmçinin İranın ərəbdilli "əl-Aləm" və İraqın "əl-İtticah" telekanallarına müsahibədə Ermənistanın atəşkəsin elə birinci günündə Skud raketilə Gəncənin mərkəzini bombalamasından, cəbhədən uzaq digər şəhər və rayonlarda Ermənistan ordusunun törətdikləri hərbi cinayətlərdən, Ermənistan silahlı qüvvələrinin işğal edilmiş ərazilərdən çıxmaqla bağlı BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsindən danışıb.

İnstitutun Din və ictimai fikir tarixi şöbəsinin aparıcı elmi işçisi, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Elvüsal Məmmədovun isə Misirin aldiplomasy.com saytında "XX əsrdə azərbaycanlıların Ermənistandan deportasiyası" adlı məqaləsi nəşr olunub. Məqalədə azərbaycanlıların öz dədə-baba torpaqlarından deportasiyasının üç mərhələsindən söz açılır, xüsusən 1948-53-cü illər deportasiyası diqqət çəkilir, bu deportasiyanı əks etdirən tarixi sənəd qoşma kimi əlavə edilir.

# AMEA Rəyasət Heyəti adından beynəlxalq elmi təşkilatlara müraciət göndərilib

**AMEA Rəyasət Heyəti adından sentyabrın 27-dən indiyədək 40-dan çox ölkənin aşağıda göstərilən 70-dən çox elm və təhsil təşkilatına, həmçinin beynəlxalq elmi cəmiyyət və assosiasiyalara müraciət göndərilib:**

1. AASSA-nın İcraçı direktoru professor Yu Han Kim
2. Albaniya Elmlər Akademiyasının prezidenti professor Skender Gjinushi
3. Atatürk Universitetinin rektoru professor Ömər Çomakli
4. Avstraliya Elmlər Akademiyasının prezidenti professor John Shine
5. Avstriya Elmlər Akademiyasının prezidenti professor Anton Cailinger
6. Banqladeş Elmlər Akademiyasının prezidenti professor Quazi Abdul Fattah
7. Başqırdıstan Elmlər Akademiyasının prezidenti akademik Alfis Qayazov
8. Belarus Milli Elmlər Akademiyası Rəyasət Heyətinin sədri akademik Vladimir Qusakov
9. Belarus Respublikası Fundamental Tədqiqatlar Fondunun Elmi Şurasının sədri akademik Sergey Qaponenko
10. Belarus Respublikasının Elm və Texnologiya üzrə Dövlət Komitəsinin sədr müavini Andrey Kosovski
11. Berlin-Brandenburq Elmlər və Humanitar Elmlər Akademiyasının prezidenti professor Christoph Markschies
12. Beynəlxalq Türk Akademiyasının prezidenti Darxan Kıdıralı
13. Bolqarıstan Elmlər Akademiyasının prezidenti professor Julian Revalski
14. Bonn Universitetinin Bitkiçilik Elmi və Resurslarının Mühafizəsi İnstitutunun direktoru professor Claudia Knief
15. Çexiya Elmlər Akademiyasının prezidenti professor Eva Zchimalova
16. Çin Elmlər Akademiyasının prezidenti professor Bay Cunli
17. Çin İctimai Elmlər Akademiyasının prezidenti professor Ce Fujanyu
18. Çin Mühəndislik Akademiyasının prezidenti Zhou Ji
19. COMSTECH-in idarə heyətinin sədri professor Arif Alvi
20. Dokuz Eylül Universitetinin rektoru professor Fatma Seniha Nükhet Hotar
21. Əlcəzair Elmlər və Texnologiyalar Akademiyasının prezidenti professor Malik Allab-Yaker
22. Əl-Fərabi Qazaxıstan Milli Universitetinin rektoru professor Mutanov Qalimkair
23. Erciyes Texnoparkının prezidenti professor Recai Kılıç
24. Erciyes Univesitetinin rekoru professor Mustafa Çalış
25. Estoniya Elmlər Akademiyasının prezidenti professor Tarmo Soomere
26. Finlandiya Elmlər və Ədəbiyyat Cəmiyyətinin baş katibi professor Pekka Aula
27. Fransanın Milli Elmi Tədqiqatlar Mərkəzinin (CNRS) sədri professor Antoine Petit
28. Gürcüstan Milli Elmlər Akademiyasının prezidenti akademik Georgi Kvesitadze
29. Hacettepe Universitetinin rektoru professor Mehmet Cahit Guran
30. Hindistan Milli Elmlər Akademiyasının prezidenti professor Chandrima Shaha
31. İndoneziya Elmlər Akademiyasının prezidenti professor Satryo Soemantri Brodjonegoro
32. İqdır Universitetinin rektoru professor Mir Mehmet Hakkı Alma
33. İqtisadi Əməkdaşlıq Təşkilatının Elm Fondunun (ECOSF) prezidenti professor Mansur Hüseyn Soomro
34. İslamabad COMSATS Universitetinin rektoru professor Muhammed Tabassum Afzal
35. İspaniya İqtisadiyyat və Maliyyə Elmləri Kral Akademiyası Akademiyasının prezidenti professor Jaime Gil Aluja
36. İsrail Təbiət və Humanitar Elmlər Akademiyasının prezidenti professor Nili Koen
37. İtaliya Milli Araşdırma Şurasının (CNR) prezidenti professor Massimo Inguşio
38. Kafkas Universitetinin rektoru professor Hüsnü Kapu
39. Karachi Universitetinin prorektoru professor Khalid Iraqi
40. KOICA-nın Azərbaycandakı nümayəndəliyinin rəhbəri Park Kumpk
41. Koreya Elm və Texnologiya Akademiyasının prezidenti professor Min Ku Xan
42. Koreya Elm və Texnologiya Siyasəti İnstitutunun (STEPI) prezidenti Hwang Hee Cho
43. Latviya Elmlər Akademiyasının prezidenti professor Ores Spintis
44. Leibniz Bitki Genetikası və Bitki Tədqiqatı İnstitutunun direktoru professor Andreas Graner
45. Leibniz-Potsdam Astrofizika İnstitutunun elmi meneceri professor Matthias Steinmetz
46. Leopoldina Milli Elmlər Akademiyasının prezidenti professor Gerald Haug
47. Litva Elmlər Akademiyasının prezidenti professor Yuras Banisu
48. Macarıstan Elmlər Akademiyasının prezidenti professor Tamah Froynd
49. Misir Elmi Tədqiqat və Texnologiya Akademiyasının prezidenti professor Mahmoud Sakr
50. Moldova Respublikası Elmlər Akademiyasının prezidenti akademik İon Tiginyanue
51. Monpelye Universitetinin prezidenti Philippe Auge
52. Monqolustan Elmlər Akademiyasının prezidenti akademik Regdel Duger
53. Montoneqro Elmlər və İncəsənət Akademiyasının prezidenti akademik Dragan Vukçeviç
54. Oksford Uniersitetinin rektoru Lord Christopher Francis Patten
55. Orta Doğu Texniki Universitetinin rektoru professor Mustafa Verşan Kök
56. Özbəkistan Respublikası Elmlər Akademiyasının prezidenti professor Bexzod Yuldashev
57. Poznan Adam Mickievicz Universitetinin rektoru professor Bogumila Kaniewska
58. Qazaxıstan Respublikası Milli Elmlər Akademiyasının prezidenti professor Murat Jurinov
59. Qırğız Respublikasının Milli Elmlər Akademiyasının prezidenti akademik Murat Jumatayev
60. Rumıniya Elmlər Akademiyasının prezidenti akademik İoan Aurel Pop
61. Rusiya Elmlər Akademiyasının prezidenti akademik Aleksandr Sergeyev
62. Serbiya Elmlər və İncəsənət Akademiyasının prezidenti professor Vladimir Kostiçu
63. Seul Milli Universitetinin prezidenti professor Ce Jungu
64. Tacikistan Milli Elmlər Akademiyasının prezidenti akademik Farhod Rakhimi
65. Tatarıstan Elmlər Akademiyasının prezidenti akademik Məkzum Salahov
66. Təbriz Universitetinin prezidenti, professor Mir Reza Məcidi
67. Təl-əviv Universitetinin prezidenti professor Ariel Poratu
68. TÜBİTAK-ın prezidenti professor Hasan Mandal
69. Türkiyə Elmlər Akademiyasının prezidenti professor Müzəffər Şəkəri
70. Türkmənistan Elmlər Akademiyasının prezidenti Sapardurdi Toyliyev
71. Ukrayna Elm və Texnologiya Mərkəzinin (STCU) İcraçı direktoru-Curtis Bjelajac
72. Ukrayna Milli Elmlər Akademiyasının prezidenti akademik Anatoliy Zagorodny
73. Xorvatiya Elmlər Akademiyasının prezidenti professor Velimir Neidhardt

**Toğrul Şahtaxtinski - 95**

# Fundamental səciyyəli elmi tədqiqatların müəllifi

**Azərbaycan elminə görkəmli şəxsiyyətlər bəxş edən nəsillərdən biri də Şahtaxtinskilər nəslidir. Bunların sırasında akademiklər Həbib Şahtaxtinskini, Toğrul Şahtaxtinskini, Emin Şahtaxtinskini göstərmək olar.**



Akademik Toğrul Şahtaxtinskinin 95 yaşı tamam olub. Toğrul Nemət oğlu Şahtaxtinski 22 oktyabr 1925-ci ildə Bakı şəhərində görkəmli ziyalı ailəsində anadan olub. Atası Nemət Şahtaxtinski keçən əsrin əvvəllərində Sankt-Peterburq şəhərində Ali Texniki məktəbi bitirdikdən sonra uzun illər Azərbaycan Neft və Sənaye İnstitutunda kafedra müdiri, anası biologiya elmləri doktoru, professor, əməkdar elm xadimi Zəhra xanım Şahtaxtinskaya isə Azərbaycan Tibb İnstitutu və Pedoqoji İnstitutunda kafedra müdiri işləmişdir.

1943-cü ildə Azərbaycan Sənaye İnstitutunun kimya-texnologiya fakültəsinə daxil olmuş və oranı 1949-cu ildə bitirərək, ömrünün sonuna kimi Azərbaycan Elmlər Akademiyasında çalışmışdır.

1959-cu ildə kimya elmləri namizədi, 1968-ci ildə kimya elmləri doktoru elmi dərəcəsi və elə həmin ildə də professor adı almışdır. 1972-ci ildə Azərbaycan EA-nın müxbir üzvü, 1976-cı ildə Azərbaycan EA-nın həqiqi üzvü seçilmiş, 1961-1962-ci illərdə Azərbaycan EA Neft-Kimya Prosesləri İnstitutunda elmi işlər üzrə direktor müavini, 1962-1967-ci illərdə laboratoriya müdiri olmaqla yanaşı, 1962-1975-ci illərdə həm də "Monomerlər" şöbəsinə rəhbərlik etmişdir. 1971-1973-cü illərdə Naxçıvan Elmi Mərkəzinin rəhbəri, 1975-2002-ci illərdə Azərbaycan EA Kimya Texnologiyasının Nəzəri Problemləri İnstitutunun, 2002-2010-cu illərdə isə Kimya Problemləri (indiki Kataliz və Qeyri-üzvi Kimya) İnstitutunun direktoru, 1973-1981, 1990-2001-ci illərdə Azərbaycan EA Kimya Elmləri Bölməsinin akademik-katibi və 2001-2007-ci illərdə AMEA-nın Rəyasət Heyətinin akademik-katibi olmuşdur. 2000-ci ildə Gürcüstan Milli EA-nın xarici üzvü (akademiki) seçilmişdir.

Toğrul Şahtaxtinskinin elmi fəaliyyəti kimya texnologiyasının nəzəri əsaslarının inkişaf etdirilməsi, kimyəvi reaksiyaların kinetika və mexanizminin tədqiqi, üzvi və neft-kimya sintezi proseslərində karbohidrogenlərin katalitik çevrilmələrinin öyrənilməsi, kimya proseslərinin modelləşdirilməsi və optimallaşdırılması ilə əlaqəli geniş problemləri əhatə edir.

O, katalizatorun qaynayan təbəqəsində alifatik karbohidrogenlər və onların qarışıqlarının oksidləşmə və oksidləşdirici ammonolizi sahəsindəki işləri ilə elmi ictimaiyyətə yaxşı tanışdır. Alim öz əməkdaşları ilə birlikdə n-butilenlərin və n-butanın malein anhidridinə, izobutilenin metakril turşusuna, propanın sirkə turşusuna birbaşa oksidləşdirilməsi, toluol, ksilollar və başqa karbohidrogenlərin maye fazalı oksidləşdirici ammonolizi proseslərini, həmçinin müxtəlif monomerlərin və üzvi sintezin aminlər, amidlər, imidlər kimi yarımməhsullarının, çoxfunksiyalı halogen tərkibli birləşmələrin alınma üsullarını işləyib hazırlamışdır.

Akademik Toğrul Şahtaxtinskinin rəhbərliyi altında xlorkarbohidrogenlərin heterogen-katalitik oksidləşməsinin elmi əsasları işlənilmiş, oksid katalitik sistemlərdə C1-C4 xlorkarbohidrogenlərin birbaşa heterogen-katalitik oksidləşməsi, müxtəlif promotorlarla müxtəlif daşıyıcılarda yüksək aktivliyə və seçiciliyə malik olan bir sıra oksid katalitik sistemlərin sintezi və seçilməsi sahələrində tədqiqatlar aparılmışdır.

Onun kimya texnologiyası nəzəriyyəsi sahəsindəki işləri mühüm tətbiqi məsələlərin həlli üçün böyük maraq kəsb edir. O, katalizatorun qeyri-stasionar iş şəraitində aparılan kimyəvi proseslərin modelləşdirilməsi və optimal idarə olunması, resirkulyasiya axınlı mürəkkəb kimya texnologiyası komplekslərinin modelləşdirilməsi və optimallaşdırılması sahəsində bir sıra tədqiqatların müəllifidir.

Alim əməkdaşları ilə birlikdə katalizatorun dəyişən aktivliyi şəraitində gedən heterogen-katalitik proseslərin təcrübi və nəzəri tədqiqi metodikasını, həmçinin psevdoqaynar təbəqədə sirkulyasiya edən katalizatorun qeyri-stasionar aktivliyi nəzərə alınmaqla bir sıra sənaye proseslərinin modelləşdirilməsi və intensivləşdirilməsi prinsiplərini işləyib hazırlamışdır. Fundamental fiziki-kimyəvi tədqiqatlara əsaslanmaqla hazırlanmış prinsiplər katalitik proseslərin öyrənilmə problemlərinin həlli, optimal şəraitin təyini və həyata keçirilməsi, onların avtomatlaşdırılması sisteminin yaradılması üçün nəzəri baza olmuşdur.

Toğrul Şahtaxtinski və əməkdaşları tərəfindən elmi avtomatlaşdırılmış eksperimentin təşkili üzrə yeni elmi istiqamət, onların keçirilmə vasitələri, kimyəvi və kimyəvi-texnoloji tədqiqatlarda Elektron Hesablayıcı Maşınla tədqiqatçı arasında münasibətin dialoq rejimindən istifadə etməklə informasiyaların tədqiqi formalaşdırılmış, əsaslandırılmış və həyata keçirilmişdir.

Kimya texnologiyasının nəzəri əsaslarının yaradılması və onun əsasında prinsipcə yeni reaksiya qurğularının hazırlanması üzrə Toğrul Şahtaxtinskinin rəhbərliyi ilə aparılmış işlər fundamental səciyyə daşıyır. Belə işlərə ilk növbədə yeni yaradılmış elektrokimyəvi yanma kamerası, səthi aerasiyalı qaz-maye reaktoru və qeyri-mütəhərrik qarışdırıcılı ilgəkvari reaktor aiddir.

Toğrul Şahtaxtinski əməkdaşları ilə birlikdə kataliz və katalitik proseslərin kinetikası, mexanizmi və dinamikası sahəsində geniş tədqiqat işləri aparmış, karbohidrogenlərin birgə oksidləşdirici çevrilmə prosesləri üçün yüksək effektli çoxfunksiyalı metal-seolit katalizatorlarının istifadəsinin elmi əsaslarını hazırlamışdır ki, bunun da əsasında effektiv katalitik proseslər həyata keçirilmişdir.

Alimin iştirakı ilə ilk polimerlərin aktiv mərkəzlərinin kataliz olunacaq substratlara əvvəlcədən uyğunlaşdırılmış və polimer kompozisiyanın yaddaşından istifadəni nəzərdə tutan metal-polimer kompleks katalizatorların yaradılmasının yeni prinsipi hazırlanmış və praktikada istifadə olunmuşdur.

1976-cı ildə Toğrul Şahtaxtinski KTNPİ-nin nəzdində "Kimya texnologiyasının proses və aparatları" və "Kimyəvi kinetika və kataliz" ixtisasları üzrə namizədlik dərəcəsi verən İxtisaslaşdırılmış Müdafiə Şurasının, 1984-cü ildən həmin ixtisaslar üzrə, 1995-2010-cu illərdə isə üç ixtisas - "Kimya texnologiyasının proses və aparatları", "Kimyəvi kinetika və kataliz" və "Yüksəkmolekullu birləşmələr kimyası" ixtisasları üzrə elmlər doktoru alimlik dərəcəsi verən İxtisaslaşdırılmış Şuranın sədri olmuşdur.

Akademik T.Şahtaxtinski Azərbaycan Respublikasını və elmini xarici ölkələrdə layiqli təmsil etmişdir. O, dəfələrlə xarici dövlətlərdə Almaniyada, Amerika Birləşmiş Ştatlarında, Yaponiyada, Fransada, Macarıstanda, Türkiyədə, Rumıniyada, Rusiyada, Ukraynada, Özbəkistanda, Gürcüstanda elmi ezamiyyətlərdə olmuşdur.

Toğrul Şahtaxtinskinin dünyanın ən iri elmi nəşriyyatlarından biri olan "Perqamon Press" tərəfindən 1962-ci ildə "Neftdən sintetik materiallar" adlı kitabı buraxılmışdır. Bu kitab Londonda ingilis dilində çapdan çıxmışdır. 1980-ci ildə ingilis dilində "C4 karbohidrogenləri və onların sənaye törəmələri" adlı daha bir kitabı çapdan çıxır. Kitab Londonda "Ernst Ben LTD" nəşriyyatında buraxılmışdır. Onun əsərləri elmi ictimaiyyətə yaxşı tanışdır, onlar qabaqcıl Beynəlxalq və Ümumiittifaq jurnallarda, İngiltərə, ABŞ, Almaniya, Macarıstan, Rumıniyada və s. çap olunmuşdur.

Toğrul Şahtaxtinski 510 elmi əsərin, o cümlədən 140-dan çox ixtira və patentin, 12 monoqrafiyanın müəllifidir. Onun rəhbərliyi ilə 12 elmlər doktoru və 48 fəlsəfə doktoru hazırlanmışdır.

1975-2010-cu illərdə "Azərbaycan Kimya jurnalı"nın baş redaktoru olmuş, dəfələrlə Bakı Şəhər Sovetinin deputatı seçilmişdir.

Toğrul Şahtaxtinski elmin inkişafında nailiyyətlərə görə "Şərəf nişanı", "Xalqlar Dostluğu", "Şöhrət", "İstiqlal" ordenləri, "Fədakar əməyə görə" medalı, Azərbaycan SSR Ali Sovetinin Fəxri Fərmanı ilə təltif olunmuş və Azərbaycan SSR-nin "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüşdür.

Akademik Toğrul Şahtaxtinski 2010-cu il oktyabrın 8-də vəfat etmişdir. Onun şərəfli ömür yolu, əsl ziyalı və bacarıqlı rəhbər kimi parlaq fəaliyyəti gələcək nəsillər üçün örnək olaraq qalacaqdır. Allah rəhmət etsin, ruhu şad olsun.

**Dilqəm TAĞIYEV,**
**AMEA-nın vitse-prezidenti, Kataliz və Qeyri-üzvi Kimya İnstitutunun direktoru, akademik**

**Arif ƏFƏNDİ,**
**Kataliz və Qeyri-üzvi Kimya İnstitutunun Həmkarlar təşkilatının sədri, kimya elmlər doktoru, professor**

# Dövrümüzün ekoloji problemlərinin həllində biotexnologiyaların xüsusi rolu

## İşğaldan azad edilən ərazilərdə mövcud olan ekoloji problemlərin həllinə doğru

**Təbiət haqqında bir çox bədii əsərlərin müəllifi, görkəmli rus yazıçısı Nikolay Sladkov qeyd edirdi: "Çoxdandır ki, biz təbiətə diqqətlə baxırıq. Özümüzə baxmağın zamanı yetişməyibmi? Quşların və heyvanların narahat gözlərində, çəmənlik və meşələrin gözlərində biz necə görünürük? Kimik biz - Yer üzünün sahibləri? Nə istəyirik? Və nə edirik?"**

Müasir cəmiyyətlərin fəaliyyəti nəticəsində yaranmış ekoloji problemlər, kəskin içməli su çatışmazlığı, torpaqların, hətta nəfəs aldığımız havanın çirklənməsi, flora və faunaya dəyən zərər - bu kimi məsələlər yazıçının fikrini olduqca aktual edir. Müasir dövrümüzün ekoloji problemləri alimlərin də qarşısına mühüm vəzifələr qoyur, çünki müxtəlif səpkili çirklənmələrin qarşısı alınmasa bəşəriyyət qlobal fəlakətlə üzləşəcək. Bu, qaçılmazdır.

Azərbaycan alimlərinin də bu yöndə çoxsaylı tədqiqatları var. Bu yaxınlarda Rusiyada AMEA-nın Mikrobiologiya İnstitutunun baş elmi işçisi, Avropa Təbiət Elmləri Akademiyasının həqiqi üzvü, biologiya elmləri doktoru, professor Nəriman İsmayılovun rus dilində "Praktiki ekobiotexnologiyanın elmi əsasları" ("Nauçne osnovı praktiçeskoy gkobiotexnoloqii") kitabı çapdan çıxıb.

Vəsaitdə müasir dövrün aktual ekoloji problemlərini həll etməyə imkan yaradan biotexnologiyalara nəzər salınır. Burada ətraf mühit ekologiyasının ümumi qiymətləndirilməsi, biosferin bioassimilyasiya potensialının təhlili və insan cəmiyyətinin bioekoloji potensialı haqqında söhbət açılır. Son hadisələri nəzərə alaraq qeyd edə bilərik ki, təqdim edilən biotexnologiyalar işğaldan azad edilən ərazilərdə mövcud olan ekoloji problemlərin müəyyən edilməsi və həllində də əhəmiyyətli rol oynayacaq.

Monoqrafiyanın "Ətraf mühit ekologiyasının qiymətləndirilməsi" adlı birinci fəslində ekoloji, qlobal (biosfer), milli (ölkə ərazisində), regional (geosistem) və lokal (yaşayış məntəqələri, sənaye mərkəzləri və müəssisələri çərçivəsində) monitorinqlər vasitəsilə müxtəlif qiymətləndirmələrin aparılması, həmçinin ətraf mühiti çirkləndirən amillər (neft və neft məhsulları, partlayıcı maddələr, fenollar, ağır metallar, radioaktiv maddələr və s.) haqqında dolğun məlumat verilir.

"Ətraf mühitin biotexnologiyası" adlı ikinci fəsil ekoloji balansın qorunub saxlanılması prinsipləri, bəşəriyyətin bioekoloji potensialı, biotexnologiyaların əsas yanaşmaları (bioremediasiya, mikrob biotexnologiyası, fitoremediasiya texnologiyaları və b.), həmçinin biotexnologiyalardan istifadə perspektivlərinə həsr edilib. Bundan əlavə müəllif olduqca aktual məsələlər haqqında - fotosintez zamanı toplanan enerjinin səmərəli istifadəsi (bioloji yanacağın istehsalı) ilə bağlı texnoloji bioenergetika sahəsi, sintetik materialları əvəz edə biləcək təbii polimerlər əsasında hazırlanan bioparçalanan plastiklərin səciyyəvi xüsusiyyətləri, bərk məişət tullantılarının utilizasiyası və emalı haqqında da ətraflı danışır.

Ətraf mühitin çirklənmədən qorunması və özünü təmizləməsinin təbii mexanizmləri, ekosistemlərin özünü tənzimləməsi, torpaqların ksenobiotik, pestisid, neft məhsulları və ağır metallardan təmizlənməsi və digər bu kimi mühüm məsələlər monoqrafiyanın üçüncü fəslində araşdırılır.

Dördüncü fəsildə suların təmizlənməsi sahəsində istifadə edilən biotexnologiyalardan söhbət açılır. Hazırda su obyektlərinin çirklənməsi problemi olduqca aktualdır. Bu məqam vəsaitdə də xüsusilə vurğulanır: "Suyun müəyyən və daimi tərkibi canlıların yaşayışı üçün əsas amildir. Qəbul etdiyimiz suyun miqdarı və tərkibi dəyişəndə həzm, qan dövranı və digər proseslər pozulur". Bu fəsildə su obyektlərinin neftlə çirklənmə səviyyəsinin öyrənilməsi, səth və qrunt sularının təmizlənməsi üsulları tədqiq edilir.

Neft istehsalı biotexnologiyasında istifadə olunan mikroorqanizm və substratlar, neft emalı zamanı süd zərdabı, biopolimerlər və bioloji səthi-aktiv maddələrin tətbiqi, neft istehsalı biotexnologiyalarından səmərəli istifadə meyarları, neft və neft məhsulları ilə çirklənən torpaqların təmizlənmə üsulları - bütün bu məsələlər monoqrafiyanın növbəti fəslində öz əksini tapıb.

"Ekoloji əkinçilik" adlı altıncı fəsildə ekoloji əkinçiliyin əsasları, kənd təsərrüfatı ekoməhsullarının sertifikatlaşdırılması, kənd təsərrüfatının ekolojiləşdirilməsində istifadə olunan mikrob texnologiyaları, heyvandarlıq tullantılarının emalı və digər məsələlərdən danışılır.

Vəsaitin sonuncu fəsli isə ekoloji mədəniyyət və ekoloji sivilliyə həsr edilib. Müəllif xüsusilə qeyd edir ki, "ekoloji məsuliyyət, insanların və ümumilikdə bəşəriyyətin ekologiya sahəsində məsuliyyətli davranışı müasir əxlaqın bir hissəsidir. Buna görə də ayrı-ayrı fərdlərin və bütün bəşəriyyətin ekoloji tərbiyəsi dövrümüzün tələbidir". Burada dövlətlər və xalqların dayanıqlı inkişafı və milli təhlükəsizliyinin strateji əsasını təşkil edən sosial tərəqqi - iqtisadiyyat - ekologiya üçlüyü haqqında söhbət açılır ki, antropogen cəhətdən yüklənmiş Yer üzünü nəzərə alsaq dünya ölkələrinin əsas səciyyəvi xüsusiyyətini artıq sırf iqtisadi və ya sosial-iqtisadi deyil, məhz ekoloji-sosial-iqtisadi amil təşkil edir.



Yuxarıda sadalananlardan aydın görünür ki, sözügedən fundamental elmi əsər dövrümüzün olduqca aktual problemlərinin həlli yollarını axtaran alim və mütəxəssislər üçün sanballı bir töhfədir. Oxuculara həmçinin, araşdırılan mövzuları əhatə edən 40-dək şəkil və 40-a yaxın cədvəl, müxtəlif sxem və düsturlar təqdim edilir.

Beləliklə, biotexnoloji üsullar ətraf mühitin qorunmasında əvəzsiz rol oynayır. Bu baxımdan yazıçı Nikolay Sladkovun digər sözləri çox yerinə düşür: "Yeri, təbiəti qorumaq üçün onu sevmək, sevmək üçünsə tanımaq lazımdır. Tanıyandan sonra isə təbiəti sevməmək mümkün deyil". Nəriman İsmayılovun "Praktiki ekobiotexnologiyanın elmi əsasları" monoqrafiyası bizə təbiəti biraz da tanımağa, tanıdıqdan sonra isə sevib qorumağa kömək edir.

Vəsait müəllimlər, tələbələr, texnoloqlar, ekoloqlar, kənd təsərrüfatı işçiləri, dövlət işçiləri, habelə istehsalatda çalışan məsul şəxslər, sosial və ekologiya sahəsində dayanaqlı inkişaf proqramlarını hazırlayanlar üçün nəzərdə tutulub.

**Nəzmin CƏFƏROVA,**
**sənətşünaslıq üzrə fəlsəfə doktoru**

NİZAMİ GƏNCƏVİ ADINA MİLLİ AZƏRBAYCAN ƏDƏBİYYATI MUZEYİ - 80

# Nizami Muzeyinin müasir elmi şəkli

**XXI əsrin ilk onillikləri içərisində ənənəvi, öyrəşdiyimiz qəlibləşmiş tanıtım məkanları, təbliğat, təşviqat vasitələri çox fərqli biçim və məzmun alıb və bu iş daha sürətlənməkdədir. Dövrümüzdə məktəb, təhsil, tədris, kino, muzeylər, bir sözlə təhsil və mədəniyyət layihələri, cəsarətlə demək olar ki, zamandan, yeni düşüncə meyarlarından, aramsız xəbər, informasiya axınından, çox vaxt, ”geridə qalır”.**



Qloballaşan dünya o qədər əlçatan, görünən, oxunan və bir kompüterin yaddaşına, bir diskə sığacaq qədər ”kiçilib” ki müasir insan, sanki texnologiyaların əsirinə çevrilib, informasiya labirintindən çıxa bilmir. Sonunda insanlar ”dünyəviləşir”, dünyanın bir mərkəzdən, bir beyindən idarə olunması siyasətinin zorən oyuncusuna, iştirakçısına çevrilir. Milli adət-ənənələr, dil, din, ailə institutu, milli dəyər, milli tarix, etnogenezis və s. yəni bir milləti, xalqı gəlişdirən, yaşadan, diri saxlayan taleyüklü dəyərlər adiləşməklə qalmayıb, axının içində əridilməkdədir. Neçə-neçə dillərin, xalqların tarixdən silinməsi, unudulması faktları məlumdur...

Ümidvericidir ki, günümüzdə maddi-mədəniyyət abidələrinə, milli irsə, onların qorunmasına vəsaitlər ayrılır - hətta ayrıca qurum - YUNESKO-da yaradılıb.

Muzeylər çoxlarının qəbul etdiyi kimi statik bina, donuq, boz sənədlər, saralmış, yıpranmış əlyazmalar, əşyalar toplusu deyil. Xarici ölkələrdə qısa müddətdə olduğumuz zaman içərisində belə, ən azı bir muzeyə baş çəkilməsi ”olmazsa olmazlardan” biridir. Çünki hər hansı tarixi məkan - kiçik kənd, qala, qaya, çay, məscid, kilsə - muzey adı ilə həmin xalqın mənəvi, tarixi, mədəni kimliyinin bir parçası timsalında təqdim edir.

Düşünürəm ki, Bakıya gəlib, Şirvanşahlar sarayı, Qız qalası, İçərişəhər qoruğu, Qobustan, Atəşgah və onlarla digər məkanlarla yanaşı Nizami Muzeyini də görmək, onun unikal memarlıq üslubunda tikilən binasında olmaq turistlərin arzusudur. Həm də Bakıda olub Nizami Muzeyində bu günə qədər qorunan ən dəyərli eksponatlardan - Nizami Gəncəvinin məzarından tapılmış ”ipək parçanı” görmək istəməyən ziyarətçi, turist tapılmaz. Hələ ki, bu, XII əsrə aid də, Şərqin və dünyanın ən qüdrətli şairlərindən olan Nizamiyə məxsus əşya ola bilər ehtimalı, nə qədər cəlbedicidir. Və ya Şuşa xanı - Pənahəlixanın gizəmli gülləkeçirməz köynəyi, Şərqdə sayının 4 olması iddia edilən möhtəşəm, bənzərsiz ”4 fəsil” xalçalarının ikisinin Nizami muzeyində sərgilənməsi faktı və s.

Yarandığı ötən əsrin 30-cu illərindən başlayaraq AMEA Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi xalqımızın ədəbiyyatı, tarixi, mədəniyyəti ilə bağlı zaman-zaman ən unikal, dəyərli nümunələri özündə cəmləmişdir. Ədəbiyyat, tarixlə bağlı bu tutarlı mənbələr muzeyin fondlarında qorunub, ekspozisiyada sərgilənməkdədir...

Lakin XXI əsr xarakterinə görə, ən yeni innovasiyaların tətbiqi, aramsız informasiya axınının, nəzəri, texnoloji, elmi biliklərin həyatla, təcrübə ilə əməli fəaliyyətlə uzlaşdırılmasını zəruri edir. Bu müstəvidə muzeylərin ənənəvi statusu, ənənəvi fəaliyyəti də sanki yeni şəkil, yeni səciyyə tələb edir. Müasir muzeylərin çağdaş durumu elmi xarakter almağa yönəlir, elmi istiqamətlər muzeylərə uzanır. Elmi biliklərin təcrübəyə tətbiqi, inteqrasiyası muzeylərdən də yan ötmür, fikrimcə, AMEA nəzdində fəaliyyət göstərən Nizami Muzeyi artıq yeni status - elmi xarakterli muzey səciyyəsinə yiyələnməkdədir, bir tədqiqat institutu kimi fəaliyyətini dəyişməkdədir.

Elmi sənədləşdirmə muzey idarəetmənin, fəaliyyətinin özülünə çevrilməkdədir. Fond və arxivlərin elmi əsaslarla komplektləşdirilməsi, elmi kataloqların, şəxsi arxiv kolleksiyaların nəşri ədəbi profilə uyğun hazırlanmaqdadır. Bu sıradan muzeydə sərgilənən və mühafizə edilən Azərbaycan ədibləri M.F.Axundzadə, X.Natəvan, Ə.Haqverdiyev, C.Məmmədquluzadə, N.Nərimanov, Ö.F.Nemanzadə, C.Cabbarlı, H.Cavid və onlarla başqalarının şəxsi arxivləri əsasında elmi kataloqlar, muzeyin ”Əlyazmalar”ı fondunun qaynaqları əsasında ”Əlyazmalar”ı kataloqu, ekspozisiya və fondlarda qorunan demək olar ki, bütün incəsənət əsərlərini qapsayan ”İncəsənət əsərləri” kataloqu akademik şəkildə hazırlanıb nəşr edilmişdir.

Muzeydə qorunan zəngin irsin geniş elmi-ədəbi ictimaiyyətə çatdırılması layihələri son illər daha geniş miqyasda həyata keçirilməkdədir.

Akademik R.Hüseynovun təşəbbüsü və elmi redaktorluğu ilə 5 bölümdə birləşən elmi araşdırmalar, kataloq və tərcümə topluları hazırlanmaqdadır. Nizami Gəncəvi ”Xəmsə”si fəlsəfəsinə uyğun bu beşlik - ”Risalə” elmi araşdırmalar toplusu, ”Xəzinə” kataloqlar toplusu, Şərqdə və Avropada Azərbaycan tarixi, ədəbiyyatı, mədəniyyəti ilə bağlı etibarlı mənbələrin dilimizə tərcüməsini əks etdirən ”Şərq” tərcümə toplusu, ”Məclis”də ilboyu Nizami Muzeyində keçirilən ədəbi məclislər, lentlərdən yazıya köçürülmüş mətnləri yer almaqdadır. ”Qaynaq” - daşyazmalar, əlyazmalar, səsyazmalar toplusudur. ”Xəmsə”nin artıq 40-dan çox sayı işıq üzü görmüşdür.

Muzeydə qorunan xalçalar ”Nizami muzeyinin xalçaları” (2010), fondlarında və ekspozisiyada mühafizə olunan unikal arxeologiya nümunələri ”Yerin altından qayıtmış gözəllik” (2009) adları ilə elm və mədəniyyət camiəsinə təqdim edilmişdir. Yəni alışdığımız muzey, vaxta, dövrə uyğun işini yenidən qurur, yeni elmi xarakter, məzmun qazanır.

Nizami Muzeyinin 80 illik fəaliyyəti dövründə heç zaman olmayan yeni ekspozisiyalar yaranmış və yaranmaqdadır. XIII əsr ərəbdilli Azərbaycan ədəbiyyatını əks etdirən zalın yaranması, siyasi repressiyaların başlanğıc ili olan və Azərbaycan mədəniyyəti, ədəbiyyatı tarixindən də yan keçməyən 1937-ci il hadisələrinə həsr edilən son dərəcə maraqlı bədii tərtibatı, zəngin materialları olan ekspozisiya və ya YUNESKO-nun maddi mədəniyyət irsi siyahısına salınan Novruz bayramı ilə bağlı - Novruz zalı, yenidən qurulan Kərkük zalı və s. istər elmi tutumu, istərsə də müasir dizaynı ilə diqqəti cəlb edir. Demək istəyirəm ki, həm yeni yaranan zallar, guşələr və ya muzeyə alınan Azərbaycan və xaricdən gətirilən eksponatlar mütləq müəyyən ədəbi şəxsiyyət, ədəbi hadisə və Azərbaycana aid mühüm tarixlə bağlı seçilir.

Qeyd edim ki, ölkə Prezidenti cənab İlham Əliyevin böyük himayəsi və muzeyin direktoru akademik R.Hüseynovun şəxsi təşəbbüsü ilə 2006-cı ildə Parisin Sen Klu məzarlığındakı Əlimərdan bəy Topçubaşova məxsus başdaşının Nizami Muzeyinə gətirilməsi və ən mötəbər eksponata çevrilməsi yerli, xarici ziyarətçilərin böyük marağına səbəb olur. Son illər muzeyin ekspozisiyası yeni sifariş edilən, alınan maraqlı və vacib eksponatlarla çox zənginləşib. Müəllifləri Fəxrəddin Əliyev, Natiq Əliyev, Akif Əsgərov, Nizami Kərimov, Stanislav Şatikov, Həmid Sahir (Həbib Sahirin oğlu), Aftandil Məlikov, Sahib Quliyev, Azad Əliyev və b. illüstrasiya, portret, tablo, heykəl və büstləri eskpozisiyaya yeni görkəm, yeni məzmun verməkdədir.

Dədə Qorqud, Nəsiminin dəmirdən hazırlanan büstü, Cavad xanın heykəli at belində, Xurşid banu Natəvan, Xəlil Rza, aşıq Ədalət, Cavad Heyət və b. büstləri yenilənən Füzuli, Xətai, Məhsəti və daha qədim dövr zallarının daha baxımlı etməkdədir. Yeni əldə olunan şəxsi arxivlər, əşyalar, tablo və portretlər haqqında çox danışmaq mümkündür. Onu demək istəyirəm ki, bu unikal dəyər yalnız muzeyin bədii-estetik gözəlliyinə xidmət etmir, say vahidini artırmır, daha çox məzmuna işləyir, ədəbi şəxsiyyəti, ədəbi hadisəni olduğu kimi tanıtmağa, təhlil etməyə yardımçı mənbə olur.

Çoxlarının da etiraf etdiyi kimi, müsbət mənada, muzeyə, akademik R.Hüseynovun yaradıcılıq laboratoriyası kimi də baxmaq olar. Onun təşəbbüsü və layihəsini təqdim etdiyi yeni dizaynda quraşdırılmış diqqət çəkən vitrinlər, teatrın Azərbaycanda yaranması və inkişafını bəlirləyən səhnə ovqatı yaradan guşə, bayram əhvallı, sazlı, xalılı Novruz zalı əyani predmetləri ilə tamaşaçıların zövqünü oxşayır. Məhsəti zalının yenidən qurulması zovq oxşamaqla yanaşı, həm də Məhsəti dövrü haqqında, yeni-yeni elmi məlumatlar verir. Məhsəti dövründə yaşamış, daha beş qadın şairə haqqında yeni məlumat, bu xanım şairələrin əsərlərindən nümunələr tamaşaçılarda xüsusi heyrət və rəğbət doğurmaqdadır. Məhsəti və ətrafında beş şairəni birləşdirən rəssam O.Sadıqzadənin ”Gəncə şairləri” əsəri bir kitab, bir məqalənin verdiyi təəssüratdan, fikrimcə, daha təsirli və yadda qalandır. Akademik Rafael Hüseynovun rəhbərliyi ilə Məhsəti rübailərinin dünyanın 21 dilində çap olunması rübai-nəğmələrinin nota alınması bu sahədə görülən elmi, bədii işlərin miqyasından söz açır.

Hər zaman böyük dəstəyə, diqqətə ehtiyacı olan soydaşlarımıza - İraq türkmanlarına həsr edilən Kərkük zalı da bədii-estetik təqdimatı, həm də tarixi məzmunu, soydaşlarımızın bugünkü durumu haqqında muzey dili ilə mühüm məlumatlar verən bir ekspozisiyadan daha ötədir. Nəzərə alsaq ki, Bakıya gələn turistlərin sayı ildən-ilə artmaqdadır. Ərəb ziyarətçiləri isə bu sırada göz görəsi daha sıxdır, deməli, bu ekspozisiyanın gördüyü tarixi missiya daha operativ, daha əyani və təsirlidir. Türkmanların hazırki taleyi, siyasi durumu ilə bağlı məlumatlar bir neçə dildə hər gün neçə-neçə əcnəbi, yerli ziyarətçiyə çatdırılır.

Nizami Muzeyində izahatçı mətnlərinin çağdaş tələblərə auditoriyaya uyğun hazırlanması günün reallığıdır. Peşəkar izahatçılarımız ingilis, rus, ərəb, fars, türk-Azərbaycan dillərində ”Şərqin və Azərbaycanın qüdrətli şairi, ”Məhəmməd Füzuli Kərbəlada doğulmuşdur”, cümləsinə diqqəti yönəldərək tamaşaçını yaxşı mənada bu ”xəbərə” kilidləyə bilirlər. İraq-Kərbəla və Azərbaycan şairi?! - Bəli, bu zaman Azərbaycan dövləti Səfəvilərin tarixi coğrafiyası, ”dövlətçiliyi” indiki İran ərazisində 1925-ci ilə qədər uzanan tarix dövləti xatırladılır və s.

Yeni və dəyərli təşəbbüs kimi, izahatçılar tematik izahatlar hazırlayır, yaşadığı dövrə uyğun tarix, fəlsəfə, coğrafiya, ədəbiyyat, mədəniyyət hadisələrini çevrələyən müstəvidə, şair və yazıçıları təqdim etməyə çalışırlar.

Son illərdə Nizami Muzeyinin ekspozisiyasında yaranmış - ”Saatlar”, ”Çilçıraqlar” və ”Mürəkkəb dəsti” adı ilə tanınan unikal guşələr diqqəti çəkir. Yəni bu ekspozisiya bir şəxsiyyətə aidliyi ilə deyil, tematikası ilə seçilir. ”Saatlar” guşəsi Azərbaycan ədəbiyyatının ən müxtəlif şair və yazıçılarına məxsus qol və stolüstü saatları bir vitrində cəmləyib sərgiləyir. Burada kimlərə məxsus saatlar yoxdur ki?! Ə.Haqverdiyev, Ö.F.Nemanzadə, S.S.Axundov, A.Şaiq, M.S.Ordubadi, Ə.Vahid, S.Vurğun, M.Cəlal, İ.Şıxlı, M.İbrahimov, B.Vahabzadə, N.Xəzri, Ə.Əlibəyli, R.Rza, E.Ağayev, C.Heyət, Əvəz Sadıq, S.Vəliyev, Qabil, Anar, V.Səmədoğlu və b. Maraqlıdır ki, Azərbaycan ədəbiyyatını, mədəniyyətini yönəldən, yeni ədəbi məktəb yaradan ”Molla Nəsrəddin” jurnalı redaksiyasına məxsus ”divar saatı”, yeni, milli intibahın baş saatı kimi rəmzi olaraq çevrəsinə bu saatları toplayıb və yönləndirə bilib. Vitrində - mərkəzdə ədəbi simvol timsalında ”Molla Nəsrəddin” jurnalı redaksiyasının divar saatı ətrafında Azərbaycan ədiblərinin saatlarının canlandırılması sanki ədəbiyyatın zamansızlığını, əbədiliyini diktə edir.

Azərbaycan yazıçıları, şair və mədəiyyət xadimlərinə məxsus mürəkkəb dəstlərinin bir guşədə toplanaraq nümayiş etdirilməsi də ədəbi simvol səciyyəlidir. Nizami Gəncəvinin ”Yeddi gözəl” əsərinin mövzusunda hazırlanmış qələm kompozisiyası çevrəsinə Ə.Nəzmi, F.Ağayev, Ö.F.Nemanzadə, A.Şaiq və b. qələm və mürəkkəb dəstlərini cəlb edib. Ədəbi körpü və bədii zaman rolunda çıxış edən bu guşə də xalqımızın hər zaman böyük dühalar, fitri istedadlar yetişdirdiyinə işarə edir.

Eyni mövzuya bağlanan bu orijinal guşələrin daşıdığı məna yükü, bədii qayəsi çox ibrətamizdir. Durna çırağı, lələk qələmlər, qum saatları və ya fərq etməz onların daha müasir şəkilləri olsun, əsas mətləb odur ki, çox qədimlərdən günümüzə qədər milli mədəniyyətin, düşüncənin ayrılmaz parçası olan ədəbiyyat, bədii sözün axarı, ənənəsi var, minillərin sərvəti qorunur, nəsil-nəsil insanları cəlb edir, bu və ya başqa şəkildə davam edir.

*(ardı var)*

**Xatirə BƏŞİRLİ,**
**AMEA Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin elmi işlər üzrə direktor müavini, professor**

# "Qarabağ Azərbaycandır!" adlı virtual sərgi açılıb

**AMEA-nın Naxçıvan Bölməsinin Elmi Kitabxanasında ”Qarabağ Azərbaycandır!” adlı sərgi açılıb.**




Sərgidə ”Qarabağ düyünü”, ”Ermənilərin Azərbaycana qarşı ərazi iddiaları və qanlı cinayətləri”, ”Azərbaycanın Qarabağ bölgəsinin tarixi”, ”Azərbaycan Respublikasının xarici siyasətində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi”, ”Qondarma erməni soyqırımı və tarixi həqiqətlər”, ”Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüquq müstəvisində”, ”Qarabağnamələr”, ”Dağlıq Qarabağın tarixindən sənədlər”, ”Qarabağ dosyası” və digər bu qəbildən olan kitabların elektron versiyaları yer alıb.

Qeyd edək ki, Naxçıvan Bölməsinin kollektivi Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə bu gün cəbhədə tarix yazan rəşadətli Azərbaycan Ordusunun əzəli və əbədi Azərbaycan torpağı olan Qarabağ uğrunda döyüşlərdə əldə etdikləri böyük uğurlara sevinir. Rəşadətli Milli Ordumuzun qısa zamanda ölkəmizin ərazi bütövlüyünü bərpa edəcəyinə inanır.

Qələbə bizimlədir! Qarabağ Azərbaycandır!

# Naxçıvanın bir çox tarixi abidələri işğal altındadır

**Müzəffər Azərbaycan ordusunun uğurlu hərbi əməliyyatı ilə 2018-ci ilin may ayında Şərur rayonunun 11 min hektarlıq ərazisi, o cümlədən Günnüt kəndi geri qaytarılsa da, hazırda Naxçıvanın bir çox abidələri, o cümlədən Kərki yaşayış yeri, Kərki nekropolu düşmən işğalı altındadır.**

Bunu Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun şöbə müdiri, AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev deyib.

Erməni vandalları tərəfindən Naxçıvan Muxtar Respublikasına məxsus olan bəzi ərazilərin də işğal edildiyini nəzərə çatdıran V.Baxşəliyevin sözlərinə görə, Ordubad rayonunun Kilit və Kotam kəndlərindəki tarixi abidələrimiz düşmən gülləsinin nişangahına çevrilib, qəbristanlıqlarımız dağıdılıb.

V.Baxşəliyev bildirib ki, Ordubad rayonundakı Kilit mağarası, Sədərək rayonundakı Püstə dərəsi yaşayış yeri, Şərur rayonundakı Dan yeri yaşayış yeri, Dan yeri qalası, Dan yeri qəbiristanlığı, Səlcuq sərkərdəsi Tananın adı ilə bağlı olan Tana qalası, Şahbulaq qalası, Muncuqlutəpə, Şahbuz rayonundakı Çiçi yurdu, qoç daşlarımız, və onlarla digər abidələrimiz düşmənin atəş nöqtəsi altında yerləşdiyi üçün həmin abidələri tədqiq etmək mümkün deyil.

Alim hesab edir ki, bu abidələr arasında Naxçıvanın uzaq Daş dövrü mədəniyyətini öyrənmək üçün əhəmiyyəti olan Kilit mağarası xüsusilə diqqətəlayiqdir.

O əlavə edib ki, Orta Tunc dövründə Azərbaycanda formalaşan Boyalı qablar mədəniyyətini öyrənmək üçün misilsiz əhəmiyyəti olan Kərki yaşayış yeri və nekropolu hələ də geniş tədqiqatlarla öyrənilməyib:

”Qədim mədəniyyətlərin beşiyi olan Naxçıvanın qədim abidələrinin işğaldan azad ediləcəyi gün yaxındadır. Heç şübhə etmirik ki, Ali Baş Komandan, Azərbaycan Prezidenti İlham Əliyevin başçılığı ilə müzəffər Azərbaycan Ordusunun qalibiyyətli yürüşləri Azərbaycanın itirilmiş tarixi torpaqlarının və qədim mədəniyyət abidələrimizin işğaldan azad olunması ilə nəticələnəcək”.

# Azərbaycan florası yeni dövrdə: gələcəyə səyahət

**Azərbaycan Respublikasının ərazisi bənzərsiz və zəngin flora örtüyünə malikdir. Burada becərilən bitkilər də daxil olmaqla ali bitkilərin 1117 cinsinə aid 4961 növü qeydə alınmışdır. Azərbaycan Qafqaz ərazisinin təxminən 16%-ni əhatə etsə də, flora baxımından (6350 növ) 70%-ni təşkil edir (Qafqazın flora konspekti, 2006).**



Son 30 ilə yaxın bir dövrdə Azərbaycan torpaqlarının 20%-i işğal altında qalmışdır. Kiçik Qafqazın dağlıq əraziləri 6 silsilədən ibarətdir, lakin onun yarısının (Qarabağ, Zəngəzur və Dərələyəz silsilələri) florası uzun illərdən bəri düşmən tapdağında ölüm-qalım savaşı verir. Azərbaycan floristik bölgüdə 20 botaniki-coğrafi rayona bölünür: Xəzər dənizi ətrafı (1200 növ), Abşeron (1000), Qobustan (1200) Kür-Araz ovalığı (1215), Kür düzü (1205), Bozdağ silsiləsi (1190), Lənkəran - Muğan (1500), Lənkəranın dağlıq hissəsi (1107), Diabar - Zuvand (1107), Lənkəran ovalığı (1205), Naxçıvan düzü (1175), Naxçıvanın dağlıq hissəsi (2700), Samur - Dəvəçi ovalığı (1145), Böyük Qafqaz -Quba Dağ silsiləsi (1700), Böyük Qafqazın şərqi (1205), Böyük Qafqazın qərbi (1105), Kiçik Qafqazın şimalı (1203), Kiçik Qafqazın mərkəzi (1316), Kiçik Qafqazın cənubu (1250), Alazan - Əyriçay vadisi (1100). Göründüyü kimi, Azərbaycanın botaniki-coğrafi bölgüsündə Kiçik Qafqazın Qarabağ ərazisi də daxil olan 3 botaniki coğrafi rayonunun 2-si (Kiçik Qafqazın mərkəzi və cənubu) düşmən işğalına məruz qalmış, illərdir meşələri, bozqırları, çala-çəmənləri və su-bataqlıq bitkilərinin son durumu barədə heç bir məlumat əldə edilməmişdir. Düzdür, biz botaniklər bu ərazilərdən heç vaxt əl çəkməmişik və ədəbiyyatlara əsasən daim onları nəzərdə saxlamışıq. Lakin elə bitkilər var ki, onların areal diapazonu yalnız Qarabağla məhdudlaşır. Ölkənin genetik ehtiyatlarını daim qorumaq və müasir vəziyyətini təyin etmək üçün floristik və sistematik araşdırmalara ehtiyac var. Əsas forma müxtəlifliyinin mərkəzləri, irsi müxtəlifliyin paylanma təbiəti, növlərin formalaşma intensivliyi sistemli tədqiqatlarla müəyyən edilmədir. İşğala məruz qalan botaniki-coğrafi rayonlarda taksonomik tərkibə 2500-ə (50%) qədər bitki növü daxildir ki, bunların populyasiya göstəriciləri, arealları və son vəziyyəti barədə heç bir məlumatımız yoxdur. Bəzi ərazilərimizdə erməni işğalçıları tərəfindən yabanı bitkilər tamamilə məhv edilərək yerində narkotik bitkilər becərilmiş və öz mənfur xislətlərini bir daha sübut etmişlər. Digər tərəfdən, Qarabağın təbiətinə olan antropogen təsirlər bir sıra qiymətli bitkilərin fərdlərinin sayının azalmasına və ya tamamilə məhv olmasına gətirib çıxarmışdır.

Ulu öndərin siyasi və iqtisadi kursu, ideyaları bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilir. Respublikada nadir və məhvolma təhlükəsi qarşısında qalan bitki növlərinin qorunub saxlanılması üçün bir sıra əməli tədbirlər sistemi həyata keçirilmişdir. Bioloji müxtəlifliyin qorunub saxlanılmasında xüsusi mühafizə olunan təbiət ərazilərinin rolu əvəzedilməzdir.

Kiçik Qafqazın enliyarpaqlı meşələrində Quercus iberica, Q.macranthera növlərinin, xüsusən Eldar oyuğunda rast gəlinən və dünyanın nadir incilərindən biri olan Pinus eldarica növünün genefondunun qorunub saxlanılması üçün "Göygöl Dövlət Qoruğu" yaradılmışdır. Bu qoruqda 423 ali bitki növünə rast gəlinir. Dünyanın ən qədim bitkilərinin məskunlaşdığı sahələrdən biri olan və təbii muzey adlanan Talışda üçüncü dövrün relikt bitkilərinin Albizia culibrissin Durazz., Gleditschia caspica Desf., Alnus subcordata C.A. Mey., Parrotia persica (DC.) C.A.Mey., Acer velutinum Boiis., Quercus castaneifolia C.A.Mey., Zelkova carpinifolia (Pall.) C.Koch, Pterocarya (Michx.) Kunth. ex. İ.İlcinsk, Pyrus grossheimii Fed., P.hyrcana Fed., P.boissierana Buhse, Buxus hyrcana Pocark., İlex hyrcana Pocark., Ruscus hyrcanus Woronow, Danae racemosa (L.) Moench., Taxus baccata L., Punica granatum L., Diospyrus lotus L. və s. qorunması üçün "Hirkan Dövlət Qoruğu" təşkil edilmişdir. Burada 162 növ endemik, 96-ı relikt, 38-i isə məhvolma təhlükəsi qarşısında qalan bitkilərdir.

Böyük Qafqaz sahəsinin qərb nahiyəsində bir çox enliyarpaqlı bitkilərin, xüsusilə Carpinus caucasica, Fagus orientalis, Acer trautvetteri, Rhodondron caucasicum, Tilia caucasica, Corylus colurna və s. bitkilərin qorunub saxlanması üçün Zaqatala Dövlət Qoruğu təşkil edilmişdir. Pirqulu Dövlət Qoruğu (Böyük Qafqazın şərq makro yamaclarındakı enliyarpaqlı meşələrin qorunması üçün), Bəsitçay Dövlət Qoruğu (şərq çinarı), İsmayıllı yasaqlığı (Dəmirağacı, şərq çinarı, qaraçöhrə, şabalıd, budaqlı danaya bitkilərinin qorunması üçün), Turyançay Dövlət Qoruğu (burada müxtəlif ardıc, palıd, nar, albalı və s. bitki növləri qorunur) təşkil edilmiş, onların genefondunun saxlanılması üçün bir sıra əməli tədbirlər görülmüşdür və indi də bu işlər davam etdirilir.

Qeyd etmək lazımdır ki, respublika ərazisində rast gələnən nadir bitki və bitkiliyin qorunması üçün 4 milli park, 17 yasaqlıq və 15 dövlət qoruğu yaradılmışdır ki, bunlardan 9-u bilavasitə flora və bitkiliyin qorunması məqsədilə təşkil edilmişdir.

Nadir və relikt su bitkilərinin qorunmasına dair botanik Cəlal Əliyevin tədqiqatı nəticəsində məlum olmuşdur ki, Nelumbo nucifera, Nymphaea alba, Trapa hyrcana, Nymphoides peltata, Hydrocotyle vulgaris, H.ranunculoides, Ludwigia palustris və s. növlər Kür-Araz və Lənkəran ovalıqlarında əvvəllər cəngəlliklər əmələ gətirdiyi halda, hazırda onların arealları antropogen amillərin təsiri nəticəsində xeyli kiçilmişdir. Bununla da su-bataqlıq bitkilərinin qorunması zəruri olmuşdur. Qeyd etmək lazımdır ki, bir çox su-bataqlıq bitkilərinin, eyni zamanda 25 növ qıjının qorunmasına dair bir sıra əməli tədbirlər sistemi irəli sürülməklə onların mühafizəsi təklif olunmuşdur. Botaniklərin apardıqları tədqiqat nəticəsində məlum olmuşdur ki, bir çox su-bataqlıq bitkisi, o cümlədən Lənkəran rayonu ərazisində Trapa hyrcana, Saatlı-İmişli rayonları ərazisində Sarısu gölündə Nelumbo nucifera tamamilə məhv olmuş, Mehman gölünün qurudulması nəticəsində isə su-bataqlıq bitkiliyinin məhvolma təhlükəsi yaranmışdır.

Qarabağın Suqovuşan və digər su-bataqlıq əraziləri və onların özünəməxsus faydalı xüsusiyyətləri olan bitkiləri ciddi şəkildə tədqiq edilməlidir.

Bir çox illər ərzində görkəmli alim, akademik Həsən Əliyev Azərbaycan torpaqlarını qarış-qarış gəzmiş, onun flora və faunasının vəziyyəti ilə yaxından tanış olduqdan sonra belə bir fikir ifadə etmişdir ki, "tənasüb pozulur, təbiət bir növ məğlub kimi geri çəkilir". Həsən Əliyev özünün şəxsi müşahidələrinə əsasən "həyəcan təbili" çalaraq dünyanın bir çox mötəbər kürsülərində elm korifeyləri qarşısında ekoloji problemlərə diqqət çəkmişdir. Bunun üzərindən uzun illər keçmiş və 30 il antropogen təsirlərə məruz qalmış, daşı daş üstə qalmamış Qarabağın kənd örüş və biçənəkləri, meşələri, ümumiyyətlə bitki örtüyünün müasir vəziyyəti barədə ermənilər tərəfindən bir cümlə belə yazılmamışdır və şəksiz ki, ərazinin yenidən öyrənilməsi vacibdir.

Azərbaycan florasının, bitki örtüyünün, bitkiliyinin öyrənilməsində akademik Vahid Hacıyevin böyük xidmətləri olmuşdur. O, qeyd etmişdir ki, insanların əməli fəaliyyəti nəticəsində son 60-70 il ərzində bir çox bitki növlərinin (İles hircanica, Quercus araxina, Tulipa karabachensis, Zelcova caspinifolia, Daphne transcaucasica, Quercus macranthera, Acer trautvetteri, Betula pendula, Pyrus elliptica, Ulmus glabra , Padus racemosa, Poaeonia mlokoswitschii, Laurocerasus officinalis, Ammochloa paleastina və s.) arealları daralmış, bəzi növlər isə itmək təhlükəsi ilə üzləşmişdir. Belə ki, Bozdağ, Didrardağ və başqa dağ silsilələrində özlərinin əmələgəlmə və formalaşmasına görə buzlaşma dövrünün sonuna aid olan bitki senozlarında Erysinium, Xeranthemum, Stipa, Melica, Dianthus cinslərinə aid növlər tamamilə sıradan çıxmışdır. Bir sıra kserofit, hemikserofit bitkilər, o cümlədən ardıc (arçan), kitrəli gəvən, qırtıc, qarayonca və s. növlərin arealları qismən daralmış və ya onlar tamamilə məhv olmuşlar. Əslən Şuşadan olan akademik Vahid Hacıyev Qarabağın florasının qorunmasının yalnız elmi və praktiki deyil, eyni zamanda tarixi əhəmiyyətə malik olduğunu dəfələrlə qeyd etmiş, qiymətli növlərin gələcək nəsillərə çatdırılması üçün yeni qoruq və yasaqlıqların təşkil edilməsi təklifini irəli sürmüşdür. Alim yüksək dağ bitkiliyinin, kserofit tipli dağ-çəmən və çəmən-bataqlıq bitkilərinin qorunması üçün Kəlbəcər rayonu Alagöllər sahəsini, nadir meşə bitkilərinin qorunması üçün isə Qarabağın dağlıq ərazilərinin mühafizə edilməsini təklif etmişdir. Lakin mənfur erməni işğalı bu fikirlərin həyata keçirilməsinə imkan verməmişdir. Ümid edirik ki, ərazinin biomüxtəlifliyi öyrənildikdən sonra yeni milli parkın yaradılması ilk təklifimiz olacaq. İşğal altında olan ərazilərin bitki örtüyü şaquli zonallıq üzrə yarımsəhralar və yarımbozqırlar (dəniz səviyyəsindən hündürlüyü 400 m-ə qədər), bozqır bitkiliyi (400-800 m), mezofil meşələr (1000-2000 m), yüksək dağlıq bitkiliyi (2000-2500 m), alp-subalp bitkiliyi (2200-3000 m), qaya bitkiliyi (Murovdağ ərazisi 3000 m-dən yuxarı) tiplərinə bölünməklə tədqiq edilməlidir. Qeyd etmək lazımdır ki, işğaldan önçəki vəziyyət barədə Azərbaycan alimlərinin elmi tədqiqatlarının nəticələri var və bu sahədə çoxlu kitablar yazılmışdır. Lakin erməni botaniklər "Qarabağ bizimdir" deməklərinə rəğmən, mətbuatda oranın florası barədə heç nə yazmamışlar. Lakin ümid edirəm ki, torpaqlarımız işğaldan tam azad olunduqdan sonra bizim alimlər tərəfindən ekspedisiyalar təşkil etməklə ərazinin florası və bitkiliyi barədə yeni əsərlər yazmaq mümkün olacaq. Respublika ərazisində tipik landşaftların yaxşı qalmış ən səciyyəvi kiçik sahələrin, xüsusi gözəlliyi ilə seçilən guşələrin, endemik, relikt və nəsli kəsilməkdə olan növlərin, çoxyaşlı ağacların, bağ-park sənəti nümunələrinin, şəlalələr, mağaralar, nadir göllər, yeraltı su çuxurlarının, digər diqqətəlayiq yerlərin təbiət abidələri kimi mühafizəsi ilə bağlı Azərbaycan alimləri tərəfindən akademik C.Əliyevin rəhbərliyi ilə çoxsaylı təkliflər hazırlanmış və müvafiq orqanlara təqdim edilmişdir. Bu təkliflər əsasında respublikanın ayrı-ayrı rayonları, kəndləri, yaşayış məntəqələri üzrə 2000-dən çox yaşlı bitki təbiət abidələri sırasına daxil edilmişdir. Bunlardan şərq çinarı, şam, şabalıd, armud, fıstıq, palıd, tut, cökə, şümşad və digərlərini göstərmək olar. 1500 yaşlı Şərq çinarının Kolayır kəndində (Ağstafa rayonu), 400 yaşlısının isə Qarayeri sahəsində qorunması vacib hesab edilmişdir. Təəssüf ki, Qarabağ işğala məruz qaldığından, uzun illər düşmən tapdağında qalmış "Çinarlı Zəngilan"ın meşələri və o cümlədən digər meşə sahələrinin təbiət abidələri barədə heç bir məlumat olmamışdı.

1989-cu ildə Azərbaycanın "Qırmızı kitabı"na daxil edilmiş 140 adda nadir və nəsli kəsilmək təhlükəsində olan bitkilərin əksəriyyəti Qarabağdan təsvir edilmişdir: daş səhləbi (xarı bülbül), Şuşa gəvəni, qaraçöhrə, Qarabağ dağlaləsi, məryəm noxudu, Şuşa xaşası, azad ağacı, ştrenbergiya kimi təbiət incilərimizin son durumu botaniklərə hələ bəlli deyil. 2013-cü ildə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin dəstəyi ilə AMEA Botanika İnstitutunun əməkdaşları və bir sıra Azərbaycan botanikləri Azərbaycan Respublikasının "Qırmızı kitabı"nın 2-ci nəşrini hazırlamışlar. Lakin Qarabağın işğal altında olan əraziləri, o cümlədən Füzuli, Ağdam, Cəbrayıl, Zəngilan, Qubadlı, Kəlbəcər, Şuşa və s. ərazilərdə yayılan bitkilər barədə heç bir yeni məlumatlar əldə etmək mümkün olmamışdır. İşğal altında olan meşə ərazilərimiz barədə məlumatlar yox dərəcəsindədir, digər tərəfdən 26000 hektar meşə ərazisində (Laçın, Kəlbəcər, Ağdərə rayonlarında) qiymətli fıstıq, cökə, vələs, palıd ağacları qırılaraq yandırılmış və meşələrimiz məhv edilmişdir. Erməni təcavüzünə məruz qalmış qoruqlar (Qaragöl və Bəsitçay qoruqları) talan edilmiş, dövlət yasaqlıqlarımız (Qubadlı, Arazboyu, Daşaltı və Laçın) antropogen amillərin mənfi təsirinə məruz qalmışdır. Onu da qeyd edim ki, işğala qədər Qarabağın meşə fondu 160000 hektardan çox olmuşdur. Bəsitçay Dövlət Təbiət Qoruğu Zəngilan rayonunda Bəsitçayın dərəsində, 100 hektarını çinar meşəsi tutan bir ərazidədir. Artıq bu torpaqlar işğaldan azad olunmuşdur və yenidən təftiş edilməsinə şərait olacaq. Qaragöl Dövlət Təbiət Qoruğu Laçın rayonunun yüksəkdağlıq ərazilərini əhatə edir. Burada işğaldan öncə 100-dən artıq bitki qorunurdu. Yasaqlıqlardan ən yaddaqalanı qırmızı palıdın mühafizə olunduğu Laçının Hacışamlı meşəsidir. Qubadlı və Laçın ərazisində yaradılmış digər qorunan ərazi isə qızılı palıdın, qoz ağaclarının, vələs, ağcaqayın, yemişan, ardıc və s. olduğu Qubadlı Dövlət Təbiət Yasaqlığıdır. Şuşa və Xocalı ərazisində vaxtilə Daşaltı Dövlət Təbiət Yasaqlığı və Zəngilan rayonunun İranla sərhəddində Arazboyu Dövlət Təbiət Yasaqlığının son durumu barədə heç bir məlumat yoxdur. Hesab edirəm ki, bu qoruq və yasaqlıqlar yeni elmi tədqiqat obyektlərinə çevrilməlidir. Qarabağ ərazisində vaxtilə yaradılan qoruqlar və yasaqlıqlar Qarabağ Milli Parkı statusu qazanmalıdır. İnanıram ki, işğaldan azad edilmiş ərazilərimizdə aparılacaq tədqiqatlar nəticəsində nadir və areali daralan növlər barədə Azərbaycan Respublikasının "Qırmızı kitabı"nın 3-cü nəşrinə yeni məlumatlar daxil ediləcək və onların qorunması qayğısına qalınacaq.

**Səyyarə İBADULLAYEVA,**
**AMEA-nın Botanika İnstitutunun Etnobotanika laboratoriyasının müdiri, biologiya elmləri doktoru, professor**

## YENİ NƏŞRLƏR

### Hüseyn Cavidin "Knyaz" faciəsi ilk dəfə ayrıca kitab halında işıq üzü görüb




**Görkəmli dramaturq Hüseyn Cavidin "Knyaz" faciəsi ilk dəfə ayrıca kitab halında nəşr olunub.**

Geniş oxucu kütləsi üçün nəzərdə tutulan kitab AMEA Hüseyn Cavidin Ev Muzeyi tərəfindən pyesin ilk dəfə səhnəyə qoyulmasının 90 illiyi münasibəti ilə işıq üzü görüb.

Kitabın tərtibçisi muzeyin direktoru, filologiya elmləri doktoru Gülbəniz Babaxanlı nəşrə yazdığı "Ön söz"də göstərir ki, 1928-1929-cu illərdə qələmə alınan "Knyaz" faciəsi Hüseyn Cavid dramaturgiyasında yeni dövrün başlanğıcıdır. Mövzusu 1920-ci illərin əvvəllərində Gürcüstan həyatından götürülən beş pərdəli pyes Cavidin yaradıcılığında möhkəm yer tutan azad sevginin və pak mənəviyyatın təntənəsi motivinin yeni şəraitdə canlandırılmasına xidmət edir. Yeni dövrü, yeni mühiti təsvir edən bu əsər ilk dəfə 90 il öncə, 1930-cu ildə Türk Bədaye Teatrında (Azərbaycan Dövlət Akademik Dram Teatrında) tamaşaya qoyulub, Abbas Mirzə Şərifzadə, Mirzəağa Əliyev, Rza Əfqanlı, Rza Təhmasib, Sona Hacıyeva kimi məşhur aktyorlar səhnə əsərində rol alıblar.

Qeyd edək ki, nəşrin redaktoru AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun direktoru, akademik Teymur Kərimli, cildinin tərtibçisi isə həmin müəssisənin şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Cavid Cəfərovdur.

### "Ali riyaziyyat" dərsliyi çap olunub




**Riyaziyyat və Mexanika İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Misir Mərdanov, müəssisənin şöbə müdiri, professor Ramiz Aslanov və Bakı Dövlət Universitetinin (BDU) dosenti Sevda İsayevanın həmmüəllifliyi ilə "Ali riyaziyyat" dərsliyi çap olunub.**

Dərsliyin elmi redaktoru fizika-riyaziyyat elmləri doktoru, professor Telman Məlikovdur.

10 fəsil və 3 əlavədən ibarət dərslik Xətti cəbr və həndəsənin analitik elementləri, Riyazi analizə giriş, İnteqral hesabı, Çoxdəyişənli funksiyalar, sıralar, Kompleks ədədlər, Adi diferensial tənliklər, Xüsusi törəməli diferensial tənliklər, Ehtimal nəzəriyyəsi və Riyazi statistikanın elementləri bölmələrindən ibarətdir.

Kitab BDU-nun Kimya və Coğrafiya fakültələrinin tədris planlarına və proqramlarına uyğun yazılıb.

Dərslikdən riyaziyyat ixtisası üzrə təhsil alan və digər yaxın ixtisaslarda oxuyan tələbələr, eləcə də ali məktəblərin tələbələri və müəllimləri istifadə edə bilərlər.

# "Ordumuzun yeni qələbələri şirin su ehtiyatlarının da işğaldan azad olunmasına şərait yaradıb"

**Son illər ölkəmizin bəzi su hövzələrində problemlər yaranıb. Xüsusilə, bir müddət əvvəl Kür çayının suyunda kəskin azalma müşahidə olunurdu. Bu və digər şirin su hövzələrində yaranmış vəziyyətin aradan qaldırılması istiqamətində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 27 iyul 2020-ci il tarixində "Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2020-2022-ci illər üçün Tədbirlər Planı" haqqında Sərəncam imzalayıb.**

Bu sənədin icrası ilə bağlı bir sıra qurumlar kimi AMEA-nın akademik H.Ə.Əliyev adına Coğrafiya İnstitutu tərəfindən də işlərə start verilib. İnstitutun şöbə müdiri, coğrafiya üzrə fəlsəfə doktoru, dosent Mirnuh İsmayılov "Elm" qəzetinə müsahibəsində ölkəmizin su hövzələrindəki mövcud vəziyyət və görülən işlər haqqında danışıb. Müsahibəni təqdim edirik.

**- Mirnuh müəllim, ölkəmizdəki su hövzələrinin hazırki vəziyyətini ümumi olaraq necə dəyərləndirirsiniz?**

- Azərbaycan Respublikası ərazisinin 60 faizdən çoxu arid və semiarid landşaftlardır. Bu ərazilərdə insanların həyat fəaliyyəti bilavasitə şirin su ehtiyatları ilə təminatla bağlıdır. Kür-Araz ovalığında kənd məskənlərinin və aqrolandşaftların yerləşməsinin təhlili göstərir ki, bu tip antropogen landşaftların lokallaşdığı sahələr Kür və Araz çayları və onlara tökülən çaylar boyunca uzanan ərazilərdir. Lakin Yuxarı Şirvan, Yuxarı Qarabağ, Baş Mil və s.magistral suvarma kanallarının çəkilməsi ilə qeyd olunan landşaftlara çaylardan kənar ərazilərdə də rast gəlinir. Bu baxımdan şirin su mənbələrində yaranan qısamüddətli problem insanların həyat fəaliyyətinin bütün istiqamətlərində ciddi problemlərə səbəb olur.

Hazırda respublikamızda kənd təsərrüfatı bitkilərinin mövsümlə əlaqədar vegetasiya dövrünü əsasən başa vurması ilə bağlı olaraq suvarma suyuna tələbat azalıb. Buna baxmayaraq, əksər çaylarımızda sululuq ekoloji normalara uyğun bərpa olunmayıb. İlin bu dövründə iqlimdən asılı olaraq bəzi regionlara düşən intensiv yağıntılar bir sıra çaylarda sululuğun artmasına səbəb olub.

**- Daha çox hansı bölgələrdəki şirin su hövzələrində problemlər aydın görünür?**

- Şirin su çatışmazlığından ən çox əziyyət çəkən regionlarımıza Mil, Muğan, Salyan, Cənub-Şərqi Şirvan, Qarabağ, Gəncə-Qazax düzlərini, Abşeron-Qobustan regionunun bəzi hissələrini, Lənkəran ovalığının şimal hissəsini, Acınohur-Ceyrançöl öndağlığını və s. göstərmək olar. 2020-ci ilin isti dövründə əsas böhranlı vəziyyət Neftçala və Salyan rayonları ərazisində yaranmışdı. Çünki sonuncu iki rayonun yeganə şirin su mənbəyi Kür çayıdır. Kür çayı isə bu yay Xəzər dənizinə şirin suyunu çatdıra bilməmişdi. Buradakı yeraltı sular səthə yaxın olsa da, yüksək minerallaşma qabiliyyəti onlardan məişətdə və suvarmada istifadəni məhdudlaşdırır.

**- Qeyd etdiyiniz kimi bir müddət əvvəl Kür çayının suyunda kəskin azalma müşahidə olunurdu. Bununla bağlı nə deyə bilərsiniz?**

- AMEA-nın akademik H.Ə.Əliyev adına Coğrafiya İnstitutunun rəhbərliyi Kür çayında problem yaranan kimi onu diqqətdə saxlayıb. Bu problemin öyrənilməsi məqsədi ilə akademik Ramiz Məmmədovun rəhbərliyi ilə institutun bir qrup alimi iyun-iyul aylarında ərazidə iki dəfə ezamiyyətdə olub.

Araşdırmalar nəticəsində məlum olmuşdur ki, Azərbaycanın baş su arteriyası olan Kür çayında suyun səviyyəsi 2020-ci ilin iyun ayında, yəni ilin isti dövrünün başlanğıcında şirin suya tələbatın artacağının gözlənildiyi bir zamanda kəskin şəkildə aşağı düşüb.Tədqiqat apardığımız Kür çayı deltasının dəniz sahilindən çay yatağı boyunca axının əksinə olaraq Neftçala rayonunun Xıllı məntəqəsinə qədər şor dəniz suyunun yatağı tamamilə doldurduğunu müşahidə etdik.

Təkrar səfər zamanı dəniz suyunun yataqboyu Salyan məntəqəsinə irəlilədiyinin və artıq Qaralar kəndinə çatdığının şahidi olduq. Bu zaman Bakı-Astara şosse yolunun Kür çayı üzərindəki körpünün yaxınlığında apardığımız müşahidələr göstərdi ki, Qaralar kəndindən Salyana qədər olan çay yatağında çay və dəniz suyu bir-birinə qarışmış vəziyyətdədir. Lakin bu hissədə şor dəniz suyu daha ağır olduğu üçün alt qatlara enmiş, üstündə isə qismən çay suyu mövcud idi. Burada axın çox zəif olduğundan suyun bulanıqlığı xeyli azalmış, şəfaflığı artmışdı. Çayın bu hissəsində əvvəlki illərdə iyun ayında 100-150 metr enində yataqboyu bulanıq su axırdı. Müşahidə apardığımız dövrdə isə çayda suyun səviyyəsinin kəskin şəkildə azalması ilə əlaqədar olaraq yatağın sulu hissəsinin eni 4-5 metrə qədər azalmışdır. Çay yatağı boyunca ölçülərini tez-tez dəyişən uzunsov adalar və axınla əlaqəsi kəsilmiş kiçik gölməçələr əmələ gəlmişdi. Bəzi yerlərdə çay yatağının akkumulyativ sahilləri tamamilə sudan azad olmuşdu.



**- Su hövzələrində yaranmış problemlərdən irəli gələrək ölkə başçısı İlham Əliyevin imzaladığı "Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2020-2022-ci illər üçün Tədbirlər Planı" haqqında Sərəncamın icrası ilə bağlı Coğrafiya İnstitutunun əməkdaşları bir sıra su hövzələrində tədqiqatlara başlayıblar. İlkin araşdırmalardan sonra vəziyyəti necə dəyərləndirirsiniz?**

- Cənab prezidentimiz, Ali Baş Komandanımız İlham Əliyevin qeyd etdiyiniz sərəncamı respublikamızda su ehtiyatlarının öyrənilməsi və onlardan səmərəli istifadə sahəsində köklü dəyişikliklər yaradacaq. Sərəncamda 10 yeni su anbarının yaradılması, bəzilərində yenidənqurma işlərinin aparılması, suvarma kanallarına su keçilməyən üzlüklərin çəkilməsi, suvarmada yeni texnologiyaların tətbiqinin genişləndirilməsi, yeni su mənbələrinin istifadəyə cəlb edilməsi və digər kompleks tədbirlərin həyata keçirilməsi nəzərdə tutulub. Coğrafiya İnstitutu olaraq sərəncamdan irəli gələn vəzifələri yerinə yetirmək üçün bir sıra ərazilərdə araşdırmalar apardıq.

Sabirabad rayonunda Arazla Kürün qovuşduğu yerdə və ona yaxın ərazilərdə çay dərəsi boyunca apardığımız ilkin müşahidələr göstərdi ki, bu hissədə Araz çayında suyun azalması daha böhranlı vəziyyətdədir. Yatağın sulu hissəsi normal vəziyyətdən 5 dəfədən çox kiçilib. Burada da yataqda adalar və axınla əlaqəsi qırılmış, durğun sulu gölməçələr əmələ gəlib. Yatağın axın olan hissəsində suyun dərinliyi ən yaxşı halda 80-100 sm-ə çatırdı. Tədqiq olunan ərazidə əsas təhlükəli vəziyyət Araz çayında yaranmışdı. Çayın qurumuş yatağında allüvial lil çöküntüləri dərinliyi 50 sm-dən çox olan çatlarla parçalanaraq takırabənzər səth əmələ gətirib.

Hazırda Salyan rayonu ərazisində inşa edilən su anbarı və buradan qidalanan su kəmərləri Neftçala şəhəri və ətraf kəndlərə keyfiyyətli içməli su verilməsinə imkan yaradacaq.

**- Ötən günlərdə ordumuzun Suqovuşan kəndini işğaldan azad etməsi nəticəsində 28 ildən sonra Tərtər çayına suyun ötürülməsi bərpa olundu. Bu hadisə şirin su ehtiyatlarımızın da işğaldan azad olunması anlamına gəlirmi?**

Kiçik Qafqaz dağlarının Murovdağ silsiləsindən cənubda qalan hissəsinin bütün çayları, gölləri və bulaqları uzun müddət erməni işğalında olmuşdu. Ermənilərin buradakı torpaq-bitki örtüyünə vəhşicəsinə müdaxiləsi, meşələrin qırılması, otlu-kolluqların intensiv yandırılması, hərbi istehkamların qurulması və s. son nəticədə səth axınının pozulmasına, çayları qidalandıran bulaqların qurumasına səbəb olub. Bu da aşağı axında çayların qurumasına və ya kəskin şəkildə suyunun azalması ilə nəticələnmişdir.

Qarabağ düzündən axan və mənbəyi erməni işğalı altında olan Xaçınçay tamamilə qurumuş, çay yatağı isə zibilliyə və qumçınqıl karxanasına çevrilmişdir. Hətta ilin yağıntılı dövründə Xaçınçayın dərəsində axının əmələ gəlməsi probleme çevrilib. Yaxın keçmişə qədər Xaçınçay çox qiymətli saqqız ağacından ibarət düzən meşə ekosistemlərinin inkişafında mühüm rola malik olmuşdur.

Son günlər ordumuzun Suqovuşan istiqamətindəki uğurlu döyüş əməliyyatları su ehtiyatlarımızın işğaldan azad olunması istiqamətində böyük qələbənin başlanğıcıdır. Buradakı su anbarlarından mənbəyini götürən suvarma kanallarımız uzun illərdir suya həsrət qalmışdı. Bu da Qarabağ düzündəki əkin sahələrinin suvarılmasında çətinlik yaradırdı. Ordumuzun yeni uğurları şirin su ehtiyatlarımızdan səmərəli istifadə etməyə kömək edəcək.

**- Şanlı ordumuz Xudafərin körpüsü üzərində də artıq Azərbaycan bayrağını sancıb. Bu tarixi körpünün işğaldan azad olunmasının ölkəmizin şirin su ehtiyatlarına müsbət təsir edəcəyi şübhəsizdir. Bu ərazidə Araz çayı üzərində qurulan "Xudafərin" və "Qız Qalası" hidroqovşaqlarının və su elektrik stansiyalarının əhəmiyyəti haqqında nə deyə bilərsiniz?**

